QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 198 (5918) **26 oktyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# İlham Əliyev: "Bu ikili standartlar siyasətinə son qoyulmalıdır!"

*Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçirilib*




Səh 2

8

Nepalın Xarici İşlər naziri: "Azərbaycanın belə mötəbər tədbirə ev sahibliyi etməsi təqdirəlayiqdir"



13

Xunta uçurum astanasında



8

"Biz qüdrətli ölkələrin diqtəsi altında parçalanmamalıyıq"



# İlham Əliyev: “Bu ikili standartlar siyasətinə son qoyulmalıdır!”

*Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçirilib*



## Qoşulmama Hərəkatına sədrlik Azərbaycana keçib

Oktyabrın 25-də Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, “Bandunq Prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək” mövzusunda keçirilən XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak edirlər. Ümumilikdə Zirvə Görüşünə 160-a yaxın ölkə və beynəlxalq təşkilatın nümayəndələri qatılıblar.

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə Görüşündə iştirak edən Belarus parlamenti Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenkonu, Oman Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munzirini, Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyətinin sədri Çoe Ryonq Haeni, Liviyanın Baş Naziri Faiz Saracı, Nepalın Baş Naziri Khadqa Prasad Şarma Olini, Banqladeşin Baş Naziri xanım Şeyx Hasinanı, Malayziyanın Baş Naziri Mahathir Bin Mohamadı, Hindistanın vitse-prezidenti Muppavarapu Venkaiah Naidunu, Vyetnamın vitse-prezidenti xanım Danq Thi Nqok Thinhi, Ekvatorial Qvineyanın Prezidenti Obiang Nguema Mbasogonu, Sudanın Prezidenti Abdul-Fattah Al-Burhanı, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb əsilli Sədri Milorad Dodiki, Cibutinin Prezidenti İsmail Ömər Qellehi, Qananın Prezidenti Nana Akufo-Addonu, Əlcəzairin Prezidenti Abdelkader Bensalahı, Namibiyanın Prezidenti Haqe Qotfrid Qeynqobu, Venesuelanın Prezidenti Nikolas Maduronu, Esvatininin Kralı III Msvatini, Əfqanıstanın Prezidenti Məhəmməd Əşrəf Qanini, Kubanın Prezidenti Migel Diaz-Kaneli, Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovu, İranın Prezidenti Həsən Ruhanini, Pakistanın Prezidenti Arif Alvini qarşıladı.

Dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Qoşulmama Hərəkatına sədrlik edən Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro Zirvə Görüşünü açaraq təşkilata üzv bəzi ölkələrin dünyasını dəyişən keçmiş dövlət və hökumət başçılarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsini təklif etdi.

Nikolas Maduro çıxışında Azərbaycan hökumətinə qonaqpərvərliyə görə təşəkkür etdi. Maduro Venesuelanın sədrliyi dövründə Qoşulmama Hərəkatının böyük inkişaf yolu keçdiyini, dünyada sülhün və təhlükəsizliyin güclənməsinə xidmət göstərdiyini dedi və növbəti üç il üçün sədrliyin Azərbaycana keçdiyini bəyan etdi.

Qoşulmama Hərəkatına sədrlik Azərbaycana təhvil verildi.

Qoşulmama Hərəkatının sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə Görüşündə nitq söyləyib. Azərbaycan Prezidenti İlham Əliyev öz nitqində qeyd edib ki, Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi Bandunq prinsipləri üzərində quracaq:

- Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün bütün iştirakçılarını səmimiyyətlə salamlayır və hər birinizə “Xoş gəlmisiniz!” deyirəm.

2016-2019-cu illərdə Qoşulmama Hərəkatına sədrlik etdiyinə görə Venesuela Bolivar Respublikasına təşəkkürümü bildirirəm.

Qoşulmama Hərəkatı bəşəri dəyərlərin təbliğinə xidmət edir və bütün ölkələrin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə sadiqliyini nümayiş etdirir. Qoşulmama Hərəkatı özündə 120 ölkəni birləşdirməklə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır.

Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatına üzv qəbul olunmuşdur. Qoşulmama Hərəkatında olduğu qısa müddət ərzində ölkəmiz beynəlxalq hüququn norma və prinsiplərini qətiyyətlə müdafiə etməkdə böyük nüfuz qazanmışdır.

Hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının 2016-cı ildə keçirilmiş XVII Zirvə Görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul olunmuşdur. Bu, ölkəmizə göstərilən hörmətin, inamın və etimadın təzahürüdür. Bunu dünya ölkələrinin əksəriyyətini öz sıralarında birləşdirən Qoşulmama Hərəkatının bizim siyasətimizə verdiyi dəstək kimi qiymətləndirir və bu qərara görə bir daha sizlərə təşəkkürümü bildirirəm.

Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi Bandunq prinsipləri üzərində quracaq. Bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşür.

Biz beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün səylərimizi artırmalıyıq. Bu baxımdan BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur. Sərhədlərin güc yolu ilə dəyişdirilməsi, gücdən istifadə olunmaqla ölkələrin ərazi bütövlüyünün pozulması, daxili işlərə müdaxilə yolverilməzdir.

Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı digər təsisatlarla dialoqun qurulması və inkişaf etdirilməsi, əməkdaşlığın coğrafiyasının genişləndirilməsi üçün səylər göstərəcəkdir. Qoşulmama Hərəkatına üzv ölkələrin əksəriyyəti inkişaf etməkdə olan ölkələr olduğundan Hərəkat çərçivəsində iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi çox mühümdür. Bu mənada keçən ay Azərbaycanın “77-lər qrupu”na qoşulması sosial-iqtisadi sahədə beynəlxalq miqyasda səylərimizi daha da artırmağa imkan verir. Üzv dövlətlərin maraqlarının BMT çərçivəsində birgə səylərlə müdafiə olunması xüsusi əhəmiyyət kəsb edir.

Ən az inkişaf etmiş, dənizə çıxışı olmayan kiçik ada ölkələrinin üzləşdiyi təhdidlərə xüsusən diqqət yetirilməlidir. 2005-ci ildən etibarən Azərbaycan 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərmişdir. Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi müxtəlif ölkələrdə yoxsulluğun azaldılması, elm, mədəniyyət, səhiyyə, informasiya texnologiyalarının inkişafı, su resurslarından səmərəli istifadə olunması, qrant proqramları və digər sahələrdə layihələr həyata keçirir.

Azərbaycan 2018-ci ildən etibarən Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına ölkəmizin ali məktəblərində təhsil almaq məqsədilə tam ödənişli təqaüdlər verir. Bu gün 31 üzv dövlətdən 37 gənc bu proqramdan faydalanır.

Azərbaycanda gənclər siyasəti prioritet sahə kimi müəyyən edilmişdir. Azərbaycan gəncləri milli ruhda, ənənəvi dəyərlərlə, Vətənə bağlı və vətənpərvər ruhda tərbiyə alırlar. Buna görədir ki, Qoşulmama Hərəkatı tarixində ilk dəfə olaraq Gənclər Sammitinin keçirilməsi təşəbbüsü ilə çıxış etmişik. Hazırkı Zirvə Görüşü ərəfəsində keçirilmiş Gənclər Sammitində 40 dövlətdən ölkəmizə gəlmiş gənclər iştirak etmişlər.

Xanımlar və cənablar, hörmətli qonaqlar.

Azərbaycanın dövlət müstəqilliyinin cəmi 28 yaşı var. Bir həftə öncə - oktyabrın 18-də müstəqilliyimizin bərpa olunması gününü qeyd etdik. Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon - ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizi iyirmi beş ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmış və nəticədə bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. O vaxt Azərbaycanın əhalisi 8 milyon idi və qaçqınların, məcburi köçkünlərin əhalinin adambaşına düşən sayına görə ölkəmiz dünyada ilk yerləri tuturdu. Ermənistan azərbaycanlılara qarşı Xocalı soyqırımını törətmişdir. Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın və 63 uşaq yalnız azərbaycanlı olduqlarına görə vəhşicəsinə qətlə yetirilmişdir. Mindən çox insan itkin düşmüşdür.

Xocalı soyqırımı dünyanın 10-dan çox ölkəsi tərəfindən tanınmışdır. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamədə Ermənistan qoşunlarının Azərbaycanın ərazisindən tam və qeyd-şərtsiz çıxarılması tələb olunmuşdur. Təəssüf ki, həmin qətnamələr həyata keçirilməmişdir. Bəzən Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günün içində icra edilir. Bəzən isə Azərbaycanın üzləşdiyi münaqişəyə münasibətdə olduğu kimi, 26 ildir ki, kağız üzərində qalır.

Ardı Səh. 3

# İlham Əliyev: “Bu ikili standartlar siyasətinə son qoyulmalıdır!”

*Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçirilib*




*“Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi Bandunq prinsipləri üzərində quracaq”*






**Əvvəli-Səh-2**

Bu ikili standartlar siyasətinə son qoyulmalıdır. İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, ATƏT və digər nüfuzlu təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edən qətnamə və qərarlar qəbul etmişlər. Fürsətdən istifadə edərək Qoşulmama Hərəkatının indiyə qədər qəbul olunmuş sənədlərində münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə etdiklərinə görə üzv dövlətlərə təşəkkürümü bildirirəm.

Azərbaycanın işğal olunmuş ərazilərində bütün tarixi abidələr, məscidlər, məzarlıqlar Ermənistan tərəfindən dağıdılmış, muzeylər və maddi-mənəvi sərvətlərimiz talan edilmişdir. Ermənistan məqsədli surətdə işğal olunmuş ərazilərdə Azərbaycan izini itirməyə çalışaraq bütün toponimləri erməniləşdirir. Ermənistan, həmçinin işğal olunmuş ərazilərdə beynəlxalq humanitar hüquqa zidd olaraq qeyri-qanuni məskunlaşdırma siyasəti aparır və qanunsuz iqtisadi fəaliyyətlə məşğul olur.




2016-cı ilin aprel ayında Ermənistanın törətdiyi hərbi təxribat nəticəsində aralarında bir uşaq olmaqla altı azərbaycanlı mülki şəxs həlak olmuş, 26-sı yaralanmışdır, yüzlərlə ev dağıdılmışdır. Qarabağ əzəli Azərbaycan torpağıdır və münaqişə yalnız Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Azərbaycan müstəqil xarici siyasət yeridir. Bu siyasət milli maraqlara, ədalətə əsaslanır və bizə çoxlu dostlar qazandırmışdır. 2011-ci ildə Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi buna bariz nümunədir. Təhlükəsizlik Şurasına üzvlük müddətində Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə, ədalətin təmin edilməsinə mühüm töhfələr vermiş və beynəlxalq siyasi proseslərin fəal iştirakçısına çevrilmişdir.

Azərbaycan BMT Təhlükəsizlik Şurasının mandatı əsasında təsis edilmiş beynəlxalq sülhməramlı əməliyyatlara da öz töhfəsini verir. Ölkəmiz Rusiya-NATO, Rusiya-ABŞ yüksək hərbi rəhbərliyinin mütəmadi olaraq keçirilən görüşlərinə ev sahibliyi edir. Dünyada 200-ə qədər ölkə vardır. Bu ölkələr arasında qeyd etdiyim görüşlər üçün Azərbaycanın seçilməsi bizim yürütdüyümüz müstəqil xarici siyasətə olan hörmətin göstəricisidir.

Hörmətli qonaqlar, müstəqilliyimizin ilk illəri Azərbaycan üçün çox keşməkeşli olmuşdur. Xəyanətkar, satqın, qorxaq, səriştəsiz Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti illərində ölkəmiz böyük bəlalara düçar olmuşdur. Azərbaycanda vətəndaş müharibəsi başlamışdır. Yalnız 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə Prezident Heydər Əliyevin hakimiyyətə gəlməsi ölkəmizi daha böyük faciələrdən xilas etdi. Azərbaycan demokratik, dayanıqlı inkişaf yoluna qədəm qoydu, ölkədə sabitlik və əmin-amanlıq bərqərar oldu.

Azərbaycan demokratiya, insan hüquqları və azadlıqları kimi dəyərlərə sadiqdir. Bunun dərin tarixi kökləri vardır. Biz fəxr edirik ki, bir əsr bundan əvvəl Şərqdə müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda demokratik respublika qurulmuş, qadınlara səsvermə hüququ verilmişdir. Bu sahədə biz hətta əksər Qərb ölkələrini də qabaqlamışıq. Demokratik inkişaf Azərbaycanın şüurlu seçimidir. Azərbaycanda bütün fundamental insan hüquq və azadlıqları, qanunun aliliyi, mətbuat azadlığı təmin olunur.

Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etmiş, ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Azərbaycana 270 milyard dollardan artıq sərmayə qoyulmuşdur ki, bunun da yarısı xarici sərmayədir. Azərbaycanın xarici borcu ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünyada 9-cu yerdəyik. Azərbaycanda yoxsulluq 5 faiz səviyyəsindədir. Təkcə bu il minimum əməkhaqqı və sosial müavinətlər iki dəfə, minimum pensiya 70 faiz artmışdır. 280 mindən çox insanı əhatə edən 68 min ailə ünvanlı sosial yardımdan faydalanır və hər bir ailə təxminən 140 ABŞ dolları ekvivalentində aylıq sosial yardım alır. Son 15 il ərzində Azərbaycanda 3200-dən çox məktəb və 640-dan çox xəstəxana və tibb müəssisəsi tikilmiş və ya təmir edilmişdir. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Üç yüz mindən çox məcburi köçkün pulsuz evlər və mənzillərlə təmin edilmişdir. Məcburi köçkün ailələrinə orta hesabla 180 ABŞ dolları ekvivalentində aylıq müavinət verilir.

Azərbaycanın əldə etdiyi nailiyyətlər beynəlxalq aləmdə təqdir olunur. Dünya Bankının 2020-ci il üzrə “Doing Business” hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasında yer alıb. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında hökumətin uzunmüddətli strategiyasına görə Azərbaycan dünya miqyasında 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsində isə 5-ci yerdədir.

Azərbaycan kosmik ölkədir. Hazırda ikisi telekommunikasiya, biri isə Yer səthini müşahidə edən üç peykimiz var. Əhalimizin 80 faizi internet istifadəçisidir.

Azərbaycanda enerji təhlükəsizliyi təmin edilmişdir. Yenə də Davos Ümumdünya İqtisadi Forumunun hesabatına istinad edərək deməliyəm ki, elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Azərbaycan, eyni zamanda, bir sıra ölkələrin enerji təchizatçısıdır. Asiya və Avropa qitələri arasında körpü rolu oynayan Azərbaycan açıq dənizə çıxışı olmayan ölkə kimi bir sıra regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq hazırda digər mühüm layihələr - Cənub-Qərb və Şimal-Qərb layihələri üzərində çalışırıq. Beləliklə, Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa öz dəyərli töhfəsini verir.

*Ardı Səh. 4*

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

26 oktyabr 2019-cu il

# İlham Əliyev: "Bu ikili standartlar siyasətinə son qoyulmalıdır!"

*Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçirilib*




*"Azərbaycan demokratiya, insan hüquqları və azadlıqları kimi dəyərlərə sadiqdir. Bunun dərin tarixi kökləri vardır"*







**Əvvəli-Səh-3**

İqlim dəyişikliyi qlobal təhlükədir. Azərbaycan onun fəsadlarına qarşı mübarizə üzrə beynəlxalq səyləri dəstəkləyir. Azərbaycan Paris Sazişini ratifikasiya etmiş, baza ili - 1990-cı illə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürmüşdür. Elektrik enerjisinin istehsalı üçün Azərbaycanda ancaq ekoloji təmiz qaz və su elektrik stansiyalarından istifadə olunur.

Azərbaycan zəngin tolerantlıq, multikulturalizm ənənələrinə malikdir. Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. On bir il əvvəl İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin iştirakı ilə başladığımız




"Bakı Prosesi" təşəbbüsü BMT tərəfindən də dəstəklənir. BMT-nin Baş katibi Antonio Quterreş "Bakı Prosesi"ni 2008-ci ildən bəri mədəniyyətlər arasında dialoqun təbliğinin ön cəbhəsi kimi dəyərləndirmişdir. "Bakı Prosesi"nin məntiqi davamı olaraq təsis edilmiş və iki ildən bir ölkəmizdə keçirilən mədəniyyətlərarası dialoq üzrə Ümumdünya Forumu artıq BMT Baş Assambleyasının qətnamələri ilə mədəniyyətlərarası dialoqun təşviq olunması üçün əsas qlobal platforma kimi tanınmışdır.

Hörmətli qonaqlar, əminəm ki, Zirvə Görüşü çərçivəsində aparılacaq müzakirələr Qoşulmama Hərəkatının gündəliyində duran hədəflərin həyata keçirilməsinə xidmət göstərəcəkdir. Azərbaycan Hərəkata sədrlik edəcəyi müddətdə öz prioritetlərini üzv dövlətlərlə birgə həyata keçirmək üçün ardıcıl səylər göstərəcəkdir. Mən Zirvə Görüşünün işinə uğurlar arzulayır və bir daha hamınıza "Xoş gəlmisiniz!" deyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

x x x

Sonra Zirvə Görüşü Prezident İlham Əliyevin sədrliyi ilə davam etdi. Zirvə Görüşünün gündəliyi qəbul edildi, Büro üzvləri seçildi, xüsusi qonaq olan dövlətlərin və təşkilatların siyahısı təsdiqləndi. Daha sonra BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bande çıxış etdi.

BMT Baş katibinin siyasi və sülh quruculuğu məsələləri üzrə müavini xanım Rozmari DiKarlo Baş katib Antonio Quterreşin müraciətini oxudu.

Zirvə Görüşü "77-lər qrupu" təşkilatının sədri Riyad Mənsurun və Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun çıxışları ilə davam etdi.

Çıxışlarda Qoşulmama Hərəkatının qarşısında mühüm vəzifələrin durduğu bildirildi, dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının vacibliyi vurğulandı.

Çıxışlardan sonra Prezident İlham Əliyev Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının sessiyasını bağlı elan etdi. Zirvə Görüşü fasilədən sonra işini ümumi debatlarla davam etdirilib.

Qeyd edək ki, Qoşulmama Hərəkatının yaradılmasının və fəaliyyətinin əsas prinsiplərindən biri onun üzvləri arasında əməkdaşlıq üçün bir forum rolunu oynamasıdır. Tamhüquqlu 120 üzvü olan Qoşulmama Hərəkatı özündə 17 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirir. 1961-ci ildə yaradılmış təşkilata üzv olan hər bir dövlət onun prinsiplərinə bağlılığını bildirməlidir. Hərəkata üzvlük prinsipləri hələ təşkilatın təsis olunmasından əvvəl, 1955-ci ildə İndoneziyanın Bandunq şəhərində keçirilən konfrans zamanı qəbul edilib.

Azərbaycan Respublikası 2011-ci il mayın 26-da Qoşulmama Hərəkatına üzv ölkələrin yekdil dəstəyini əldə edərək təşkilata tamhüquqlu üzv qəbul olunub. Azərbaycan Hərəkatın müxtəlif səviyyəli iclas və konfranslarında iştirak etmək və üzv ölkələrlə ikitərəfli münasibətlərini sıxlaşdırmaqla onun məqsəd və prinsiplərinə öz töhfəsini verir. Hərəkata üzv olduğumuz qısa müddət ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə beynəlxalq ictimaiyyətin geniş dairələrində məlumatlılıq daha da artıb, təşkilatın daxili prosedur və sənədlərində Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həllinə davamlı olaraq dəstək əks olunub. Hərəkata üzvlük, həmçinin beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlığa dair proseslərə ölkəmizin daha yaxından cəlb olunması və çoxsaylı dövlətlərlə ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə münasib şərait yaradıb. Beləliklə, Azərbaycan Respublikası 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcək.

# Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşü işini ümumi debatlarla davam etdirib













***Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə Görüşü işini ümumi debatlarla davam etdirib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçən debatlarda Pakistan Prezidenti Arif Alvi, İran Prezidenti Həsən Ruhani, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Malayziyanın Baş Naziri Mahathir Bin Mohamad, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani, Kuba Prezidenti Migel Diaz-Kanel, Cibuti Prezidenti İsmail Ömər Qelleh, Rusiya Xarici İşlər nazirinin müavini Sergey Verşinin, Əlcəzair Prezidenti Abdelkader Bensalah, Esvatininin Kralı III Msvati, Qana Prezidenti Nana Akufo-Addo, Namibiya Prezidenti Haqe Qotfrid Qeynqob, Ekvatorial Qvineyanın Prezidenti Obiang Nguema Mbasogo, Sudan Prezidenti Abdul-Fattah Al-Burhan, Hindistanın vitse-prezidenti Muppavarapu Venkaiah Naidu, Vyetnamın vitse-prezidenti xanım Danq Thi Nqok Thinh, Banqladeşin Baş naziri xanım Şeyx Hasinam, Nepalın Baş Naziri Khadqa Prasad Şarma Oli və Liviyanın Baş Naziri Faiz Sarac çıxış etdilər.

Çıxışlarda 2030-cu il üçün Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində göstərilən səylərin artırılmasının, iqlim dəyişikliyi, miqrasiya, qaçqın və köçkün problemlərinin qarşısının alınmasının, dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının, transmilli cinayətkarlığa qarşı mübarizənin, kütləvi qırğın silahların yayılmasının qarşısının alınmasının, ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsinin önəmi vurğulandı, Qoşulmama Hərəkatına üzv dövlətlərin bu sahədə birgə əməkdaşlığının vacibliyi diqqətə çatdırıldı.

Natiqlər XVIII Zirvə Görüşünü yüksək səviyyədə təşkil etdiyinə və nümayəndə heyətlərinə göstərilən qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə, Azərbaycan hökumətinə və xalqına minnətdarlıqlarını bildirdilər.



# “Ölkələrimiz arasında qardaşlıq, dostluq münasibətlərinin böyük tarixi əsası var”

## *Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub*

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev dedi:

- Hörmətli Qurbanqulu Məlikquliyeviç, xoş gəlmisiniz.

Sizi Azərbaycan torpağında yenidən görməyimə şadam. Bu yaxınlarda Sizinlə Türkmənistanda MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində görüşmüşük. Fürsətdən istifadə edib Sizi həmin iclasın gözəl təşkili münasibətilə təbrik etmək və əlbəttə, Aşqabad haqqında təəssüratlarımı bir daha bölüşmək istərdim. Mən Sizin ölkənizdə tez-tez oluram və orada böyük dəyişiklikləri görürəm. Bunu Sizə Aşqabadda da demişdim, indi də demək istəyirəm. Bu, şəhərsalma və şəhərin, onun infrastrukturunun müasir dinamik inkişafı, vətəndaşlar üçün, sakinlər üçün yaxşı şərait yaradılması nümunəsidir.

Əlbəttə, biz gündəlikdəki ikitərəfli məsələlər barədə bir daha fikir mübadiləsi aparmaq imkanını əldən verə bilmərik. Biz müntəzəm olaraq görüşürük. Keçən il Sizin ölkənizə rəsmi səfərimi, bundan əvvəlki görüşümüzü böyük məmnuniyyətlə xatırlayıram. Bu gün biz praktiki olaraq bütün sahələri əhatə edən ikitərəfli inkişafla bağlı mühüm məsələləri müzakirə edəcəyik.



Ölkələrimiz arasında qardaşlıq, dostluq münasibətlərinin böyük tarixi əsası var. Xalqlarımız çoxəsrlik tarix ərzində həmişə bir-birinə qardaşlıq münasibəti bəsləyib. Biz də bu ənənələri davam etdiririk. Buna görə Sizə bir daha səmimi qəlbdən “Xoş gəlmisiniz!” deyirəm və təşəkkür edirəm ki, Türkmənistan Qoşulmama Hərəkatının Zirvə Görüşündə ən yüksək səviyyədə iştirak edir.

xxx

Prezident Qurbanqulu BERDİMƏHƏMMƏDOV dedi:

-Hörmətli İlham Heydər oğlu, Türkmənistanın ünvanına səmimi ürək sözlərinizə görə sağ olun. Mən də Sizə təşəkkür etmək istərdim ki, məni Qoşulmama Hərəkatının iştirakçısı olan ölkələrin XVIII Zirvə Görüşünə dəvət etmisiniz. Mən bəri başdan Sizi təbrik etmək istəyirəm. Zirvə Görüşü ən yüksək və mütəşəkkil səviyyədə keçir. Bu münasibətlə Sizi təbrik edirəm. Əlbəttə, Zirvə Görüşünün mahiyyəti bütün dünyada sabitliyin, təhlükəsizliyin və sülhün möhkəmləndirilməsidir. Burada bizim iqtisadi münasibətlərimiz və ən başlıcası, deyərdim ki, humanitar və beynəlxalq məsələlər mühüm rol oynayır. Yəqin ki, hər bir dövlətdə məhz onun öz maraqları mühüm rol oynayır. Bu, hərəkat üzvlərinin bugünkü çıxışlarından da aydın görünürdü. Hər bir dövlətin suverenliyi, ərazi bütövlüyü yəqin ki, çox böyük əhəmiyyət kəsb edir. Buna görə bildiyiniz kimi, biz də bitərəf ölkəyik, Türkmənistan neytraldır. Biz Sizin qonşularınız, qardaşlarınızıq. Əlbəttə, biz buna Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi mövqeyindən də baxırıq ki, heç vaxt qarşıdurma olmasın. Bütün bu məsələləri, əlbəttə, siyasi, diplomatik vasitələrlə həll etmək lazımdır. Buna görə bu gün bəlkə də bütün beynəlxalq arena üçün çox vacib Zirvə Görüşünün uğurlu keçirilməsi münasibətilə Sizi bir daha təbrik etmək istəyirəm.

Bir söz də demək istərdim və bu, kompliment deyil. Qədim Xəzərin sahilindəki Bakı həmişəki kimi gəncləşir və gözəlləşir. Onun özünəməxsus memarlığı var. İnsan burada gördüklərinə hər dəfə sevinir. Buna görə öz adımdan Sizi təbrik etmək istərdim ki, bu gün müasir Bakı daha da gözəlləşir.

Bizim ikitərəfli münasibətlərimizə gəldikdə, Siz də dediyiniz kimi, siyasət məsələsini, əlbəttə ki, bərabər xatırladıq. İqtisadi məsələlərə gəldikdə, qeyd etmək istərdim ki, onlar yüksələn xətt üzrə inkişaf edir və belə də olmalıdır. Sevindirici haldır ki, enerji təhlükəsizliyi məsələlərində biz eyni mövqedəyik. Ümumiyyətlə, Sizə təşəkkür edirəm ki, bu gün biz nəqliyyat və tranzit dəhlizlərini nəinki regionda, daha geniş miqyasda birlikdə inkişaf etdiririk. Sevindiricidir ki, bizdə bütün bu məsələləri İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya əlaqələndirir. Buna görə dəvət üçün Sizə bir daha təşəkkür etmək, dövləti fəaliyyətinizdə bundan sonra da uğurlar diləmək, ən xoş arzularımı bildirmək, qardaş Azərbaycan xalqına firavanlıq, xoşbəxtlik arzu etmək istərdim. Bir daha sağ olun.

Prezident İlham Əliyev: Sağ olun.

# Azərbaycan Prezidenti İlham Əliyev Cibuti Prezidenti İsmail Ömər Qelleh ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Cibuti Respublikasının Prezidenti İsmail Ömər Qelleh ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Cibuti Prezidenti Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Prezident İsmail Ömər Qelleh Azərbaycanın qonşu dövlətin təcavüzünə məruz qaldığını, münaqişənin həlli ilə bağlı Azərbaycanın haqlı tələbinin legitim xarakter daşıdığını vurğuladı. Dövlət başçısı Cibuti Milli Assambleyasında Xocalıda baş verənlərin soyqırımı kimi tanınması ilə bağlı qətnamənin qəbul edildiyini xatırlatdı.

Prezident İlham Əliyev ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın və qarşılıqlı dəstəyin vacibliyini qeyd etdi. Azərbaycan Prezidenti Xocalıda baş verənlərin 10-dan çox dövlət tərəfindən soyqırımı kimi tanındığını bildirdi. Dövlətimizin başçısı Cibuti Milli Assambleyasında Xocalı soyqırımı ilə bağlı qəbul etdiyi qətnamənin yüksək qiymətləndirildiyini nəzərə çatdırdı. Görüşdə ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafına dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidenti İlham Əliyev Venesuela Prezidenti Nikolas Maduro ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Prezident Nikolas Maduro Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün yüksək səviyyədə təşkil olunduğunu qeyd etdi və Prezident İlham Əliyevə bu Zirvə Görüşünə sədrliyinə görə minnətdarlığını ifadə etdi.

Söhbət zamanı Azərbaycanın Qoşulmama Hərəkatına uğurla sədrlik edəcəyinə əminlik ifadə olundu.

Görüşdə Bandunq Prinsiplərinin dövlətlərarası münasibətlərdə mühüm rolu xüsusi qeyd olundu və bu prinsiplər əsasında Qoşulmama Hərəkatının beynəlxalq sülh və təhlükəsizliyə töhfə verdiyi vurğulandı. Bandunq Prinsipləri, xüsusilə dövlətlərin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və onların daxili işlərinə qarışılmamasının beynəlxalq münasibətlərin təməl prinsipləri olmasının vacibliyi bildirildi. Söhbət zamanı, həmçinin Qoşulmama Hərəkatı çərçivəsində üzv dövlətlər arasında həmrəyliyin, qarşılıqlı dəstəyin və əməkdaşlığın gücləndirilməsinin önəmi bildirildi.

# Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının xanımları Heydər Əliyev Mərkəzində olublar

## *Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva qonaqlarla görüşüb*









***Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının xanımları oktyabrın 25-də Heydər Əliyev Mərkəzində olublar.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva qonaqlarla görüşüb.

Qonaqlar əvvəlcə Heydər Əliyev Mərkəzi ilə tanış olublar. Onlara məlumat verilib ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

“Azərbaycan inciləri” sərgisi ilə tanış olan qonaqların diqqətinə çatdırılıb ki, bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatlar nümayiş etdirilir. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri sərgilənir, qədim çalğı alətlərimiz orijinal şəkildə - səsli formada təqdim olunur. Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər. Sonra qonaqlar “Musiqi alətləri: birlik və müxtəliflik” sərgisinə də baxdılar. Ekspozisiyada Heydər Əliyev Fondunun müxtəlif mənbələrdən topladığı nadir kolleksiya - XVIII-XX əsrlərə aid 200-dək musiqi aləti nümayiş olunur. Sərgidə Azərbaycan musiqi mədəniyyəti tarixinə də geniş yer verilib. Burada 50-dək milli musiqi aləti yer alıb. Sərginin muğam otağında Azərbaycanın tanınmış xanəndələrinin ifalarından ibarət videoçarxlar, ekspozisiyadakı monitorlarda isə UNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmiş Azərbaycan muğamı, as?ıq sənəti, tar və kamança ifaçılığına aid musiqi nümunələri təqdim edilir. Sərgidə hər bir musiqi alətini seyr etməklə yanaşı, onu dinləmək də mümkündür.

Daha sonra qonaqlar “Kukla incəsənətdə” sərgisi ilə tanış olublar. Sərgidə dünyanın müxtəlif ölkələrinin müəlliflərinin əl işi olan 230 kukla nümayiş etdirilir. Ekspozisiyadakı sənət nümunələrinin əksəriyyəti tək nüsxədə hazırlanıb və yüksək bədii dəyərə malikdir. Həmin əsərlərin çoxu beynəlxalq kukla festivalları və biennalelərində qalib olub. Sərgidə çini, kağız, plastik, taxta və parçadan hazırlanan ənənəvi kuklalarla yanaşı, müasir texnologiyalardan istifadə olunaraq yaradılan modern kuklalar da təqdim edilir. Sərgidə kuklalar 11 müxtəlif mövzu üzrə bölünüb. Belə ki, ekspozisiyada geyim tarixi, yumoristik obrazlar, bayram simaları, İçərişəhər sakinləri, nağıl qəhrəmanları, taxta kuklalar və digər mövzularda eksponatlarla tanış olmaq mümkündür. Sərginin hər bir eksponatı ilə tanışlıq, eyni zamanda, kukla sənətinin incəliyini, inkişaf tarixini izləməyə imkan yaradır.

Sərgilərlə tanışlıqdan sonra keçirilən görüşdə Qoşulmama Hərəkatının əhəmiyyətinə toxunan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban ƏLİYEVA dedi:

- Əziz xanımlar, sizi salamlayıram. Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə iştirak etmək üçün Azərbaycana xoş gəlmisiniz. İnanıram ki, BMT-yə üzv dövlətlərin üçdəiki hissəsini özündə birləşdirən Qoşulmama Hərəkatının Bakı Zirvəsi Hərəkatın gələcək inkişafına və üzv dövlətlərin münasibətlərinin həmrəylik və qarşılıqlı anlaşma ruhunda möhkəmlənməsinə mühüm və fərqli töhfəsini verəcəkdir.

Azərbaycan müstəqilliyini 1991-ci ildə bərpa etmişdir. Ötən illər ərzində bütün çətinliklərə baxmayaraq, ölkəmiz sürətlə inkişaf edib, müstəqilliyini qoruyub saxlayıb və ictimai-siyasi həyatın bütün sahələrində böyük nailiyyətlər qazanıb. Azərbaycan dünya birliyində etibarlı tərəfdaş və məsuliyyətli üzv kimi tanınır.

Əziz xanımlar, baxmayaraq ki, biz müstəqil ölkə kimi gəncik, lakin Azərbaycan qədim tarixə və zəngin mədəniyyətə malik olan ölkədir. Əsrlərboyu bu məkanda müxtəlif sivilizasiyaların, dinlərin, millətlərin nümayəndələri sülh və qarşılıqlı hörmət şəraitində yaşayıb. Bu gün də Azərbaycan dövləti və Azərbaycan xalqı bu ənənələri qoruyub saxlayır. Sülh mədəniyyətinin təbliğ, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviq edilməsinə ölkəmizdə xüsusi diqqətlə yanaşılır. Təsadüfi deyil ki, son illər Azərbaycan bu sahədə tanınmış beynəlxalq platformaya çevrilib. Son illər ölkəmizdə bir sıra möhtəşəm, mötəbər beynəlxalq forumlar, görüşlər, sammitlər keçirilib. Qoşulmama Hərəkatının XVIII Zirvəsinin məhz Azərbaycanda keçirilməsi bunun növbəti sübutudur. Gələn üç il ərzində ölkəmiz Qoşulmama Hərəkatına sədrlik edəcək və mən əminəm ki, bu illər ərzində öz fəaliyyətini məhz bu prinsiplər - əməkdaşlıq, tərəfdaşlıq, qarşılıqlı hörmət, ölkələrin suverenliyinə və ərazi bütövlüyünə dəstək şəklində həyata keçirəcək.

Əziz dostlar, əziz xanımlar, bu gün görüş keçirdiyimiz Heydər Əliyev Mərkəzi dünya şöhrətli memar Zaha Hadidin ölməz əsəridir. Mərkəz bir tərəfdən nadir memarlıq abidəsidir, digər tərəfdən müasir Bakının simasıdır, simvoludur. Qərblə Şərqin tarixini, memarlığını, mədəni abidələrini özündə birləşdirən Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Mən ümidvaram ki, siz vaxt tapıb paytaxtımızla daha yaxından tanış olacaqsınız, insanlarımızın qonaqpərvərliyini hiss edəcəksiniz.

Əziz xanımlar, bir daha sizə “Xoş gəlmisiniz!” deyirəm. Təmsil etdiyiniz ölkələrə və xalqlara sülh və əmin-amanlıq arzulayıram. Sizin hər birinizə möhkəm cansağlığı və uğurlar diləyirəm.

Sonda xatirə şəkli çəkildi.

# “Sevgi Hüdud Tanımır” mövzusunda tədbir keçirilib





***Dünən Mənəvi Dəyərlərin Təbliği Fondu və Əlillərə və aztəminatlı ailələrə İctimai Dəstək Fondunun birgə təşkilatçılığı ilə “Sevgi Hüdud Tanımır” mövzusunda tədbir keçirilib. SİA-nın xəbərinə görə, tədbirdə Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman Ismayılov, Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü, Səs Media Qrupun rəhbəri Bəhruz Quliyev, Əlillərə və Aztəminatlı ailələrə İctimai Dəstək Fondunun direktoru Gülbəniz Bayramova və digərləri iştirak ediblər. Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.***

İlk çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fonduonun icraçı direktoru Mehman İsmayılov tədbir iştirakçılarını salamlayaraq söyləyib ki, Prezident İlham Əliyevin apardığı siyasət bütün sahələrdə özünü göstərir. O bildirib ki, əlillər cəmiyyətimizin döyünən ürəyidir: “Ölkəmizdə əlillərlə bağlı müxtəlif təşkilatlar, birliklər fəaliyyət göstərir. Mənəvi Dəyərlərin Təbliği Fondu da adından göründüyü kimi mənəvi dəyərlərin təbliği ilə məşğuldur. Bu gün dünyada müsbət proseslərlə yanaşı mənfi proseslər də baş verir. Mənfi proseslər fonunda xalqlar öz mənəvi dəyərlərindən uzaqlaşırlar. Bizim fondun fəaliyyəti bu prosesin qarşısını almağa dair xidmət göstərməkdir”.

M.İsmayılov vurğulayıb ki, dünyada hüdud anlayışı nisbidir:”Elə insanlar var ki onun bütün əzaları yerindədir, amma cəmiyyətə faydası yoxdur. Eləri də var ki, onlar fiziki məhdudiyyətli olsalar da cəmiyyətə qat qat fayda verirlər”.

Gülbəniz Bayramova çıxış edərək “Sevgi Hüdud Tanımır” layihəsinin əlillərə və aztəminatlılara həsr olunduğunu dilə gətirib: “Biz bugünkü tədbirlə yalnız bayramlarda, əlamətdar günlərdə deyil, hər zaman sizin yanınızda olduğumuzu göstərməyə çalışırıq. Əsas insanın fiziki deyil əqli cəhətdən sağlam olmasıdır. Ölkə başçısı tərəfindən fiziki məhdiyyəti olan insanlar, eləcə də aztəminatlı ailələrlə bağlı çox mühüm sərəncamlar imzalanır, tədbirlər həyata keçirilir. Əlillərin cəmiyyətə inteqrasiyası ilə bağlı mühüm və əhəmiyyətli işlər görülür. Ölkəmizdə bu kateqoriyadan olan insanların sosial müdafiəsinin gücləndirilməsi, mənzil şəraitinin yaxşılaşdırılması, müavinətlərinin artırılması ilə bağlı inqilabi işlər həyata keçirilir. Əvvəllər əlilliyi olan şəxslərə o qədər də yaxşı baxmırdılar, amma ölkəmizdə bu sahədə həyata keçirilən treninqlər və tədbirlər nəticəsində bu baxışlar aradan qalxıb. Həyata keçirilən işlər Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fiziki məməhdudiyyətli şəxslərə göstərdiyi diqqət və qayğısı nəticəsində mümkün olub. Bu gün fiziki məhdiyyətli insanların bütün sahələrdə uğurlarını görürük. Sizlər heç zaman qüsurlu olmağınız haqqında düşünməməli, cəmiyyətə yararlı olmağa çalışmalısınız”.

Daha sonra Nərimanov rayon İcra Hakimiyyətinin nümayəndəsi Zülfüqar Qasımov əlillərimizin dövlət qayğısından bəhrələndiyini və bütün fiziki məhdud şəxslərin Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasəti dəstəklədiklərini vurğulayıb.

Tədbirin davamında çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü, Səs Media Qrupun rəhbəri Bəhruz Quliyev qeyd edib ki, bugünkü tədbir dövlət və cəmiyyət arasında bağlılığını təzahürüdür: “Azərbaycan dövlətinin əsas vəzifələrindən biri vətəndaşlara xidmət etməkdir. Ölkə başçısı İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində də insan, vətəndaş amili dayanır. Dövlətimiz tərəfindən prioritet istiqamət kimi əlillərlə bağlı işlər görülür, fiziki məhdud şəxslərə protezlər, əlil arabaları pulsuz şəkildə verilir, onlara müxtəlif imtiyazlar tətbiq olunur. Bütün bunlar göstərir ki, dövlətin öz vətəndaşının, xüsusilə də fiziki məhdud insanların hər tərəfli təminatına maraqlıdır. Cəmiyyət çatışmazlıqları özü aradan qaldırdıqdan tam olur. Əgər bizlər fiziki çatışmazlıqları olanları tamamlaya biliriksə, demək istəyimizə nail ola bilmişik”. Tədbir naharla davam edib. Sonda tədbirdə iştirak edən fiziki məhdud şəxslərə ərzaq yardımı paylanıb.

# “Biz qüdrətli ölkələrin diqtəsi altında parçalanmamalıyıq”

***“Dünyada böyük müharibə baş verə bilər. Biz böyük müharibənin şahidi ola bilərik. Ola bilər ki, hazırda vəziyyət o yerə çatmayıb. Lakin ayrı-ayrı ölkələrdə baş verən münaqişələr, müharibələr, terrorlar ümumilikdə dünya üçün böyük bir təhdiddir. Digər tərəfdən yeni silahların meydana gəlməsi vəziyyəti daha da çətinləşdirir”. SİA-nın verdiyi məlumata görə, bunu Malayziyanın Baş naziri Mahathir Bin Mohamad Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə Görüşündə deyib.***



Baş nazir qeyd edib ki, terrorçuluq təhlükəsi azalmır, əksinə artır: “Dünyanın elə bir ölkəsi yoxdur ki, bu təhlükədən sığortalansın. Terrorizm yalnız düzgün yanaşma, düşüncə hesabına aradan qaldırıla bilər. Terrorizmin səbəblərini müəyyən edib aradan qaldırmasaq, bu təhlükə davam edəcək. Bütün üzv ölkələrə çağırış edirəm ki, terrora qarşı mübarizə aparsınlar və onun səbəbini öyrənsinlər”.

Malayziyanın baş naziri deyib ki, artıq ticarət müharibələri iqtisadiyyatlara sarsıntı yaradır: “Ticarət müharibələri ölkələrə adi müharibələr qədər zərər vurur. Bu da nəticədə sosial problemlərin meydana gəlməsinə, sosial müharibələrə səbəb olur. Aparıcı iqtisadiyyatlar arasında mübarizə dünya iqtisadi sisteminə mənfi təsir göstərir. Malayziya bu iqtisadi müharibənin ortasındadır. Biz ABŞ və Çin iqtisadiyyatına bağlıyıq. Çalışmalıyıq ki, milli rəqabətlilik qabiliyyətimzi artıraq. Bir insanı öldürən cinayətkar hesab olunur, lakin milyonlarla insanların ölümünə səbəb olanlar cəzasız qalır. Müasir müharibələr günahsız insanların, uşaqların ölümünə səbəb olur. Bunun səbəbkarları cəzalandırılmalıdır. Biz qüdrətli ölkələrin diqtəsi altında parçalanmamalıyıq. Bu, onlara ilham verir və bizə daha çox təzyiq göstərirlər. Birgə fəaliyyət göstərməklə bu çətinliklərə sinə gələ bilərik”.

## Nepalın Xarici İşlər naziri: “Azərbaycanın belə mötəbər tədbirə ev sahibliyi etməsi təqdirəlayiqdir”



Qoşulmama Hərəkatı soyuq müharibə dövründə dünya ölkələrində yaranmış gərginliyi azaltmaq məqsədilə və dövlətlərin ərazi bütövlüyü, suverenliyinə və müstəqilliyinə hörmət kimi təməl prinsiplər əsasında yaradılmış bir blokdur. Təşkilatın əsas funksiyası inkişaf etməkdə olan dövlətlərin qeyd olunan bu təməl prinsiplərini təmin etmək və onların maraqlarını beynəlxalq aləmdə birgə müdafiə etməkdən ibarətdir. Azərbaycanın belə mötəbər tədbirə ev sahibliyi etməsi təqdirəlayiqdir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Bakıda keçirilən Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Toplantısında iştirak edən Nepalın Xarici İşlər naziri Pradeep Kumar Qyavali deyib. O, bu tədbirin hərəkata üzv olan ölkələrin dövlət və hökumət başçılarının bir araya gələrək dünyanı narahat edən aktual problemlərin müzakirəsi və onların həlli yollarının tapılması baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirib. “Burada, həmçinin sosial, iqtisadi, turizm, iqlim dəyişikliyi və digər sahələrdə əməkdaşlığın perspektivləri sahəsində də müzakirələr aparılacaq. Bu müzakirələr ümumilikdə hərəkata üzv olan dövlətlərin inkişafına yönəlmiş əməkdaşlığın daha da güclənməsinə təkan verəcək”, - deyə Nepalın Xarici İşlər naziri əlavə edib.

# "Əsas vəzifəmiz iqtisadi inkişafı şərtləndirən islahatları dərinləşdirməkdir"

***- Kamaləddin müəllim, məlum olduğu kimi, ölkəmizdə davamlı şəkildə reallaşdırılan iqtisadi islahatlar yeni mərhələyə qədəm qoyub. Bu islahatların əsas istiqamətləri haqqında sizin fikirlərinizi bilmək istərdik...***

- Bildiyimiz kimi, hələ Ulu Öndər Heydər Əliyev vaxtilə demişdir ki, iqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir. Bu, tam həqiqətdir və bu gün bizim siyasi müstəqilliyimizin təməlində iqtisadi müstəqillik dayanır. Bu gün Azərbaycanın iqtisadi uğurlarını heç kəs inkar edə bilməz. Ölkəmiz dünyanın dinamik inkişaf edən ən stabil ölkələrindən biridir.

Prezident İlham Əliyevin yanında oktyabrın 15-də keçirilən iqtisadi müşavirədə cari ilin son 9 ayı ərzində Azərbaycanda iqtisadiyyat sahəsində əldə olunan çox böyük uğurlardan söhbət açılmışdır. Göstərilmişdir ki, bu müddət ərzində qeyri -neft sektorunda artım 3%, qeyri-neft sənayesində isə 15%-dən çox olmuşdur. Sahibkarlara 130 milyon manatdan çox güzəştli kredit verilmiş, iqtisadiyata 10,146 milyon manatdan çox investisiya yatırılmış, ölkəmizin valyuta ehtiyatları 50 milyard dollar təşkil etmişdir. 186 ölkə ilə ticarət əlaqələri yaradılmış, xarici ticarət dövriyyəsi 25,3 milyard dollara çatmışdır. Sevindirici haldır ki, qeyri-neft ixracı 15% artaraq 1,4 milyard dollarlıq səviyyədə qərarlaşmışdır.

Minimum əmək pensiyası 200 manat, minimum əməkhaqqı isə 250 manat miqdarında müəyyən edilmişdir. Təkcə 2 sosial paketlə 4,2 milyon insanın maddi güzəranı xeyli yaxşılaşdırılmışdır.



Dünya Bankının "Doing Busines" hesabatında Azərbaycanın dünyanın ən çox islahat aparan ölkələri sırasına daxil olması, rəqabət qabiliyyətli indeksində ölkəmizin öz mövqelərini daha da yaxşılaşdırması ondan xəbər verir ki, əslində, islahatlar makroiqtisadi sabitliyin qorunub saxlanmasına və makroiqtisadi göstəricilərdə artım tempinin formalaşmasına və qorunuçb saxlanmasına imkan yaradır. Bu məqam, eyni zamanda, beynəlxalq səviyyədəki mövqeyimizin möhkəmlənməsinə səbəb olur.

Hazırda ölkənin 33 rayonunda 262 min hektar ərazidə 51 aqropark və fermer təsərrüfatının yaradılması istiqamətində nəhəng işlər görülür. Bu vəzifələrin reallaşdırılmasına dövlət tərəfindən 2,4 milyard manatdan çox vəsait ayrılmışdır.

Təbii ki, bütün bunlar günügündən daha da uğurla reallaşdırılan iqtisadi, siyasi və sosial islahatlar nəticəsində mümkün olmuşdur. Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev son müşavirədə bu islahatlara verilən qiymət və dəstəklə bağlı demişdir: "...Əsas vəzifəmiz iqtisadi inkişafı şərtləndirən islahatları dərinləşdirməkdir. Bütövlükdə Azərbaycanda iqtisadi sahədə islahatlar uğurla gedir.Beynəlxalq aparıcı maliyyə qurumları da bu sahədəki fəaliyyətimizi yüksək vqiymətləndirirlər..."

## *Milli Məclisinin Səhiyyə komitəsinin üzvü Kamaləddin Qafarovun yap.org.az-a müsahibəsi*

***- Kamaləddin müəllim, 2020-ci il icbari tibbi sığortanın bütün respublika miqyasında tətbiq ediləcəyi ildir...***

- İcbari tibbi sığortanın tətbiqi hökumətin səhiyyə sahəsində apardığı davamlı islahatların tərkib hissəsidir. İcbari tibbi sığortaya keçid ölkə vətəndaşlarının tibbi xidmətlərə əlçatanlığını artırır. Müasir və keyfiyyətli tibbi xidməti təmin edən səhiyyənin maliyyələşdirilməsinin yeni forması olan icbari tibbi sığorta xəstəliklərin erkən mərhələdə aşkar edilməsində, daha ağır mərhələyə keçidinin qarşısının alınmasında, ən ucqar kəndlərdə yaşayan əhalinin keyfiyyətli tibbi xidmətlərlə təmin olunmasında əhəmiyyətli rol oynayır.

Gələn il Azərbaycanda icbari tibbi sığortanın tətbiqi planlaşdırılır. Bildiyiniz kimi, bu prosesə bir neçə il əvvəl başlanmış, Yevlax, Mingəçevir şəhərlərində və Ağdaş rayonunda pilot layihələr səviyyəsində icbari tibbi sığorta tədbirləri həyata keçirilmişdir.

Səhiyyə sistemlərində maliyyələşmə mexanizmləri ilə bağlı beynəlxalq təcrübədə icbari tibbi sığortanın 4 istiqaməti mövcuddur. Azərbaycanın icbari tibbi sığorta sisteminin tətbiqi zamanı 2 xidmət paketinin təklif edilməsi nəzərdə tutlur.

Birinci paket üçün tələb olunan 29 manatlıq vəsait dövlət hesabına qarşılanacaq . Əlavə xidmətlər paketinin isə 2% əmək haqqı və 2% işəgötürən hesabına maliyyələşəcəyi planlaşdırılır.

Ölkəmizdə icbari tibbi sığortanın tətbiqi sosial sahədə həqiqətən inqilabi bir addımdır. Qarşıda duran nəhəng vəzifələrin reallaşdırılması üçün gələn ilin Dövlət büdcəsində səhiyyə sahəsinə rekord miqdarda - təxminən 1,4 milyard manat vəsaitin ayrılması nəzərdə tutlur.

***- Dövlət başçısı İlham Əliyev idarəçilikdə yeni ənənənin əsasını qoydu:artıq dövlət məmurlarını şəxsən özü qəbul edir. Ümumuyyətlə, Prezident İlham Əliyevin kadr siyasətində hansı yenilikləri göstərə bilərsiniz?***

- Sualınza bir qədər düzəliş vermək istərdim. Bu, yeni ənənə deyil. Möhtərəm Prezidentimiz bir qayda olaraq, nomenklatur işçiləri, ölkənin müəyyən strukturlarında hansısa vəzifə etibar edilməsi nəzərdə tutulan , və ya konkret vəzifədə çalışan ayrı-ayrı şəxslərlə daim görüşür. Dövlət başçısı bu görüşlər zamanı yeni kadrların fəaliyyət perspektivləri, işinin prioritet məqamları ilə bağlı tapşırıq və tövsiyələrini verir. Digər kadrların isə cari işlərin gedişi ilə bağlı hesabatlarını dinləyir. Sadəcə olaraq, bu görüşlərin informasiya təminatı formatı bir qədər dəyişib, təkmilləşib ki, bu da şəffaflığın daha da geniş şəkildə təmin edilməsi məqsədini güdür.

Bildiyiniz kimi, bu yenilik cəmiyyətdə maraqla qarşılanıb və cəmiyyət -dövlət, cəmiyyət-hökumət münasibətlərində bir yaxınlaşma və bir etimadın yaranmasına vəsilə olub.

O ki, qaldı kadr siyasətinə, bilirsiniz, bu məsələ bağlı çoxdan diqqət mərkəzindədir. Ölkəmizdə idarəçilik , o cümlədən dövlət idarəçiliyi məsələləri, kadrların seçilib yerləşdirilməsi, tapşırılan iş üçün onların məsuliyyətinin artırılması sahəsində ciddi, məqsədyönlü iş aparılır. Özünüz də şahidsiniz ki, uzun illər dövlət və hökumət strukturlarında çalışan yaşlı kadrlar indi könüllü şəkildə öz vəzifələrindən istefa verir və bu vəzifələrə cavan, özünü praktik işlərdə yaxşı göstərmiş perspektivli kadrlar əvəzləyir. Bu, belə də olmalıdır və cavanlaşma prosesi, ölkənin gələcəyinin gənclərə etibar edilməsi prosesi bu şəkidə tədricən həyata keçirilməlidir.

Bu proses də islahatlar paketinin ayrılmaz hissəsidir. Möhtərəm Prezidentimiz İlham Əliyevin bir neçə gün bundan əvvəl dediyi sözləri xatırlayırsınızmı? "Kadr islahatları labüddür, bu, qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər", - deyə dövlət başçısı vurğulamışdı.

***- Kamaləddin müəllim, oktyabrın 19-da Bakının mərkəzində icazəsiz aksiyaya cəhd edildi. Bəzi politoloqların fikrincə, Azərbaycan dövlətinə və dövlətçiliyinə, xalqa qarşı ən rəzil və yolverilməz üsullarla mübarizə aparmağa cəhd edən siyasi qüvvələr, əslində, bir sıra xarici dövlətlərin və təşkilatların iradəsinin ortaya qoymuşdular...***

- Bu məsələ son günlər cəmiyyətin gündəmində olan əsas müzakirə mövzularından biridir. Bilirsinizmi, hər bir hadisə baş verərkən, ilk növbədə, bu aksiyanın hansı situasiyadan qaynaqlandığını, kimlərə sərfəli olduğunu, bu işin hansı qrupların və qüvvələrin mənafeyinə uyğun gəlməsini araşdırmaq lazımdır. Bu məqsədlə aksiya ərəfəsində baş vermiş siyasi prosesləri xatırlayaq. Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev oktyabrın əvvəlində Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun toplantısında və ondan sonra Türkmənistanın paytaxtı Aşqabadda MDB Dövlət Başçıları Şurasının sammitində səsləndirdiyi tezisləri və qətiyyətli bəyanatları, şübhəsiz, Qərbin bəzi siyasi qüvvələrinin, o cümlədən bədnam qonşularımızın və onların züytanlarının xoşuna gələ bilməzdi. Təkcə Prezidentimizin "Dağlıq Qarabaq Azərbaycanındır və nida!" tezisi dünyanın ən aparıcı KİV-nin manşetinə çıxdı, böyük pozitiv əks-səda doğurdu.

Ölkə Prezidentinin bu ilin 9 ayının sosial-iqtisadi nəticələrinə həsr olunmuş müşavirədə parlaq nitqi və islahatların inkişaf edəcəyi və daha da dərinləşəcəyi ilə bağlı anonsu Azərbaycanı gözü götürməyən xarici qüvvələrin böyük narahatlığına səbəb oldu. Nəhayət , oktyabrın 25-26-da keçiriləcək Qoşulmama Hərəkatına üzv olan dövlət və hökumət başçılarının XVIII Bakı Zirvə görüşünə kolgə salmaq cəhdləri də, əslində, Avropada yazılan ssenarinin Bakıda reallaşması cəhdi idi.

Reputasiyası korlanmış, nüfuzdan düşmüş, ikili standartlarla hərəkət edən bu Avropa təşkilatları artıq dünyada ciddi qəbul edilmir, onların fikir və rəyləri bir çox ölkələrdə etimad və etibar doğurmur. Onlar müxalifəti zəif və səriştəsiz olan ölkələrə nüfuz edərək, tarixin səhnəsində bir qədər də duruş gətirmək istəyirlər. Amma bir şeyi anlamırlar ki,nə zaman o zaman, nə də məkan da o məkandır...

Biz hamımız əminik ki, xaricdən idarə olunan bu cür aksiyalar bizi islahatlar yolundan sapdıra bilməz, əksinə, cəmiyyətimizə, vətəndaşlarımıza Azərbaycanın daha da inkişafı və rifahı naminə böyük qətiyyət və əzmkarlıq aşılayır.

## Arif Rəhimzadə: "İlk dəfə olaraq dövlət büdcəsindən bələdiyyələrə subvensiya ayrılacaq"



"Azərbaycanda bələdiyyələrin fiziki şəxslərdən əmlak, hüquqi şəxslərdən torpaq vergisi toplamaq hüququ var". Bunu Milli Məclisin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə deyib. Bələdiyyələrin əmlak və torpaq vergisi toplaması ilə bağlı müəyyən problemlərlə üzləşdiyini deyən komitə sədri bu il ilk dəfə dövlət büdcəsindən bələdiyyələrə subvensiya ayrılacağını nəzərə çatdırıb. Onun sözlərinə görə, subsidiyadan fərqli olaraq subvensiya məqsədli layihələr üçün nəzərdə tutulmuş xərclərdir.

Arif Rəhimzadə Ermənistanın Azərbaycan ərazisinin 20 faizini işğal etməsi ilə əlaqədar yüz minlərlə insanın bələdiyyələrini formalaşdırmaq hüququndan istifadə edə bilmədiyini söyləyib.

Bələdiyyələrin vətəndaş cəmiyyətindəki rolundan danışan komitə sədri bu ilin dekabrında bələdiyyə seçkilərinin keçiriləcəyini xatırladıb. Bir sıra kiçik bələdiyyələrin birləşdirildiyini, hazırda 1606 bələdiyyənin olduğunu nəzərə çatdıran A.Rəhimzadə bələdiyyə seçkilərində seçici fəallığının yüksək olacağına ümid etdiyini vurğulayıb.

## "Azərbaycan Qoşulmayan ölkələr üçün faydalı partnyordur"



"Qoşulmama Hərəkatının fəal üzvünə çevrilmək Azərbaycan diplomatiyasının mühüm uğuru və beynəlxalq sülh prosesinə real töhfə verməsi üçün əhəmiyyətli platformadır". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib. O bildirib ki, Hərəkata üzv olandan cəmi 8 il sonra ölkəmiz zirvə görüşünə ev sahibliyi etmək və üç il müddətinə sədrlik etmək şansı əldə edib. Onun sözlərinə görə, nəzərə almaq lazımdır ki, Azərbaycan bu unikal şansı 120 dövlətin təmsil olunduğu bir təşkilat daxilində əldə edə bilib: "Bu imkan Azərbaycana oynadığı mühüm rola və apardığı siyasətə görə verilib. Azərbaycan hər zaman regional və beynəlxalq inteqrasiyalarda, sülh və təhlükəsizlik məsələsində, enerji təhlükəsizliyinin təminatında, dövlətlər arasında səmərəli iqtisadi-ticarət münasibətlərinin qurulmasında təşəbbüskar və ardıcıl icraçı mövqe tutub, belə proseslərə real töhfələr verməyə çalışıb".

Ekspertin fikrincə, Azərbaycanın Avropa Şurası ilə islam dünyasının əlaqələrinin qurulması və inkişaf etdirilməsində, habelə BMT ilə ATƏT arasında terrorla qlobal mübarizənin təşkili üzrə birgə tədbirin təşkili və keçirilməsi sahəsində dəyərli təcrübəsi var: "Bu və digər amillər Azərbaycanı Qoşulmayan ölkələr hərəkatı üçün çox cəlbedici edir. Azərbaycanın həqiqətən bu istiqamətdə Qoşulmama Hərəkatına mühüm töhfələr vermək gücü var. Azərbaycan sədrlik dövründə Qoşulmayan ölkələrin ümumi maraqlarında olan bir sıra iqtisadi, siyasi,mədəni, humanitar təşəbbüslərlə çıxış etmək və birgə layihələr icra etmək gücündədir. Azərbaycan kimi çoxvektorlu diplomatiya və enerji-nəqliyyat siyasəti aparan ölkə Qoşulmayan ölkələr hərəkatının beynəlxalq münasibətlər sistemində rolunu daha da artıracaq".

A. Quliyev qeyd edib ki, Azərbaycanın bu ölkələrin iqtisadi-ticarət əməkdaşlığına və inteqrasiyasına böyük töhfə verəcəyinə şübhə yoxdu: "Qoşulmayan ölkələr üçün Azərbaycan çox faydalı, rahat və anlaşıqlı partnyordur. Yaxşı haldır ki, bu ölkələrin hər biri Azərbaycanın imkanlarına və yaşadığı problemlərə, ilk növbədə Qarabağ probleminin həllinə lazımi anlayışı və dəstəyi nümayiş etdirir. Azərbaycanın sədrliyi Qoşulmayan ölkələr hərəkatının tarixində mühüm mərhələ kimi qalacaq".

## "Zirvə görüşünün Bakıda keçirilməsi ölkəmizin dünyadakı rolunu göstərir"



"Unutmayaq ki, BMT-yə üzv olan ölkələrin 120-si Qoşulmama Hərəkatının üzvüdür. Onların hamısı bu gün Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçıları-nın XVIII Bakı Zirvə Görüşündə təmsil olunur". Bu fikirləri SİA-ya açıqlamasında politoloq, Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıqov deyib. O bildirib ki, istər təşkilata sədrliyin Azərbaycana keçməsi, istərsə də, Zirvə görüşünün Bakıda keçirilməsi ölkəmizin dünyada oynadığı roluna yanaşmadır.

Azərbaycanın öz maraqların uyğun olaraq dünyada balanslı siyasət həyata keçirdiyini deyən politoloq ölkəmizin heç bir hərbi bloka qoşulmadığını dilə gətirib. Onun sözlərinə görə, Qoşulmama Hərəkatın üzvü olmaq Azərbaycanın maraqlarına cavab verir: "Qoşulmama Hərəkatı bir neçə qitəni birləşdirən bir təşkilatdır. Yaxın Şərq, eyni zamanda Asiya, Afrika, Cənubi Amerika qitələrini birləşdirən təşkilat yüksək nüfuza malikdir". F. Sadıqov qeyd edib ki, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi müddətində bir sıra mühüm məsələlərə diqqət yetiriləcək: "Belə ki, ölkəmiz münaqişələrin yaranması, təhlükəsizliyin təmin olunması, eyni zamanda bizi narahat edən separatizm meyllərinə qarşı çıxış edərək bu istiqamətdə siyasi addımlarını davam etdirəcək. 3 il ərzində sədrlik edən Azərbaycan bu istiqamətlərdə bir sıra nailiyyətlərə, uğurlara imza atacaq. Ölkəmiz müxtəlif istiqamətlərdə müəyyən qətnamələr və qərarların qəbul olunmasında həm təşəbbüskar, həm də bunlara nail olan dövlətə çevriləcək".

# Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü

***Oktyabrın 25-də Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə quruma sədrlik Azərbaycana keçib. Eyni zamanda, 3 il müddətində quruma sədrlik edən Venesuela Prezidenti Nikolas Maduro Zirvə Görüşünün gündəliyinə uyğun olaraq, səsvermə elan edib və Azərbaycan Prezidenti İlham Əliyev yekdilliklə Zirvə Görüşünün sədri seçilib. Azərbaycan 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcək. Söhbət etdiyimiz müsahiblərimiz Qoşulmama Hərəkatının Zirvə Görüşünün Azərbaycanda keçirilməsinin ölkəmizin dünyada siyasi, iqtisadi və digər sahələrində böyük nüfuza və mühüm yerə malik olduğunun başlıca göstəricisi olduğunu bildirdilər.***



### Millət vəkili Tahir Rzayev: "Zirvə Görüşünün Bakıda keçirilməsi ölkəmiz üçün böyük əhəmiyyətə malikdir"

- BMT-dən sonra dünyada ən böyük beynəlxalq təşkilat sayılan Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün Bakıda keçirilməsi ölkəmiz üçün böyük əhəmiyyətə malikdir. Bu amil beynəlxalq aləmdə gündən-günə artan nüfuzumuzdan xəbər verir. 160-a yaxın ölkənin nümayəndələrinin, dövlət başçılarının, nazirlərinin, tanınmış siyasətçilərin, ictimai xadimlərin qatıldığı bu görüşdə bəşəriyyəti narahat edən bir çox məsələlər müzakirə olunacaq, təhlükəsizliyin, əmin-amanlığın, əməkdaşlığın möhkəmləndirilməsi, müharibələrin qarşıdurmaların aradan qaldırılması, insan həyatını yaxşılaşdırılması üçün dəyərli təkliflər irəli sürüləcək və qərarlar qəbul ediləcəkdir. Sözsüz ki, Qarabağ məsələsi də zirvə görüşünün əsas mövzularından biri olacaq və Azərbaycan həqiqətlərinin müdafiə olunmasına lazımi dəstək veriləcəkdir. Çünki BMT kimi bu təşkilatda ölkəmizin ərazi bütövlüyünün tərəfdarıdır və hər zaman Azərbaycanın sülhsevər siyasətinə dəstək verir. Digər tərəfdən Azərbaycanın bu hərəkata növbəti üç il ərzində sədrlik etməsi ölkəmizin bir çox dövlətlərlə münasibətlərinin yaxşılaşdırılmasına zəmin yaradacaq, sülhsevər mövqeyimizi bir daha ortaya qoyacaq, ölkələr arasından nüfuzumuzu artıracaqdır.

### Millət vəkili Azər Badamov: "Qoşulmama Hərəkatının Zirvə Görüşünün Bakıda keçirilməsinin böyük əhəmiyyəti olacaq"

- Bu gün bütün dünyanın diqqəti Azərbaycanın paytaxtı Bakıdadır. Bakıda Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü keçirilir. Qoşulmama Hərəkatı BMT-dən sonra dünyada ən böyük təşkilatdır. Yəni dünya üzrə ikinci yerdədir. Bu gün Bakımıza 60-dan çox dövlət və hökumət başçıları gəlir və bu tədbirdə iştirak edirlər. 160-a yaxın ölkədən nümayəndə heyəti qoşulur, 2 minə yaxın nümayəndənin iştirakı gözlənilir. Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşün Bakıda keçirilməsinin ölkəmiz üçün böyük əhəmiyyəti var. Çünki 3 ilə ərzində Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edəcəkdir və sədrlik dövründə həm dünyada beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın inkişafı istiqamətində öz töhfəmizi verəcəyik, həm də ki, ölkəmizin uzun illərdir narahat edən və torpaqlarımızı işğal altında qalması ilə bağlı probleminizi, mütəmadi olaraq, dünyanın gündəliyinə çıxarmaq imkanı əldə etmiş oluruq. Qoşulmama Hərəkatı təşkilatının üzv ölkələri həm də BMT-nin üzvləridir. Bu məsələnin BMT-nin qəbul etdiyi ərazi bütövlüyü çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi məsələsi ilə bağlı qətnamələrdəki müddəaların həll olunmaması ilə bağlı bizim narahatçılığımızı bu tədbirin zirvə toplantısında biz qaldırmaq imkanı əldə etmiş oluruq. Sədrlik etdiyimiz illər ərzində də, mütəmadi olaraq, dünya ictimaiyyətinin diqqətinə bu problemimizi çatdıra biləcəyik. Bununla yanaşı, həm də, dünyanın diqqətinin Bakıda olmasına və Bakı kimi sabit bir məkanın dünya tərəfindən bu təşkilata sədrlik üçün seçilməsi və zirvə toplantısının keçirilməsinin, təbii ki, turzim potensialımızın reallaşdırma imkanları da əldə etmiş oluruq və dünyaya ölkəmizi tanıdırıq. Bu da turzim potensialımızın inkişafında öz töhfəsini verəcəkdir. Qoşulmama Hərəkatı ölkələri Azərbaycana təşrif buyururlar və bu gün Azərbaycanın inkişafı və iqtisadi potensialı ilə yaxından tanış olurlar. Yəni bu gələn şəxslər, dövlət başçıları, hökumət rəhbərləridirlər. Bundan sonra iqtisadi əməkdaşlıq imkanlarının genişləndirməsi baxımından, Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşün Bakıda keçirilməsinin böyük əhəmiyyət olacağına da inanıram. Həm də Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün Azərbaycanda keçirilməsinin ölkəmizdə siyasi sabitliyin təmin olunmasının göstəricisi kimi də qəbul etmək olar və bütün dünyanın Azərbaycana etdiyi etibar və etimad kimi də qeyd etmək olar. Ümumiyyətlə, həm ölkəmiz, həm də dünya üçün Bakıda Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün keçirilməsinin böyük əhəmiyyəti olacağını düşünürəm.




**GÜLYANƏ**

## Azərbaycanda 17 mindən çox tələbənin təhsil haqqı dövlət büdcəsindən ödənilir



Hazırda ali təhsil müəssisələrində təhsil alan 17120 tələbənin təhsil haqqı dövlət büdcəsindən ödənilir. Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, məcburi köçkün statusuna malik, valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəxslərin uşaqları, əlil olan tələbələrin təhsil haqqı dövlət büdcəsindən ödənilir.

## Dövlət Neft Fondu üçüncü rübdə 5 tondan çox qızıl alıb



Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) cari ilin üçüncü rübündə 5 tondan çox qızıl alıb. Neft Fondunun 2019-cu ilin 9 ayı üzrə investisiya fəaliyyətinin yekunlarına dair hesabatında deyilir ki, bu il sentyabrın 30-na ARDNF-in investisiya portfelində qızılın ümumi miqdarı 100,66 ton olub. İlin ikinci rübünün sonuna olan məlumata görə isə Dövlət Neft Fondunun investisiya portfelində qızılın ümumi miqdarı 95,47 ton idi. Beləliklə də, Neft Fondu bu ilin iyul-sentyabr aylarında 5,19 ton qızıl alıb.

Ümumilikdə, ötən ilin sonu ilə müqayisədə ARDNF cari ildə 49,71 ton qızıl alıb. Qeyd edək ki, hazırda qızıl investisiyaları Neft Fondunun investisiya portfelinin 11,4 faizini, ABŞ dolları portfelinin isə 4 milyard 833,6 milyon dollarlıq hissəsi təşkil edir.

# İslami dəyərlər, multikulturalizm məktəbi, tolerantlıq yeni dövrünü yaşayır

***İyirmi birinci yüzillikdə sürətlə inkişaf edən Azərbaycanın sosial, iqtisadi, siyasi və mədəni sahələrdə əldə etdiyi yüksək göstəriciləri, böyük uzaqgörənliklə hazırlanmış inkişaf strategiyasının uğurlu tətbiqinin nəticəsidir. Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, dünyanın nüfuzlu təşkilatlarının Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etməsi ölkəmizi dünyada demokratik, qüdrətli və öz sözünü deməyə qadir olan ölkə kimi tanınmasından irəli gəlir.***

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və bu, davam etməkdədir. Azərbaycan sabitlik adası və dinamik inkişafda olan ölkə kimi nüfuza malikdir. Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşamışdır və yaşayır. "Ölkəmizdə sabitliyin mənbəyi xalqımızın iradəsidir, xalqımızın seçimidir"- deyən Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirib ki, bu gün ölkəmiz dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən birinə çevrilib:"Əlbəttə ki, gördüyümüz bütün bu işləri dünya kontekstindən ayırmaq mümkün deyil. Dünyada və bölgədə gedən təhlükəli proseslərə fikir verərkən, bir daha görürük ki, Azərbaycan öz yoluna sadiqdir, müstəqillik, inkişaf yolu ilə gedir və biz çalışmışıq və çalışacağıq ki, bundan sonra da ölkəmizi, xalqımızı mümkün olan risklərdən qoruyaq, öz müstəqil yolumuzu təmin edək. Artıq tarix və ətrafda baş verən hadisələr göstərir ki, bizim seçdiyimiz yol yeganə düzgün yoldur".

Ötən 16 il ərzində, Azərbaycan Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncamlar və fərmanlar iqtisadi islahatları daha da dərinləşdirdi, iqtisadi sabitlik qorundu və ölkəmiz bir çox əhəmiyyətli layihələri reallaşdırdı. Sosial siyasətin uğurla həyata keçirilməsinin məntiqi nəticəsi olaraq, vətəndaşların maddi rifah halı yaxşılaşdırılıb, sosial müdafiə və təminat sistemi gücləndirilib, sosial tələbatlar və ehtiyaclar yüksək səviyyədə ödənilib. İnsanların sağlamlığının qorunması, təhsilin inkişafı da prioritet məsələ kimi diqqətdədir. Azərbaycanda səhiyyənin, təhsilin inkişafına, bu və ya digər sahələrin maddi-texniki bazasının gücləndirilməsinə diqqət artır.

### AZƏRBAYCAN TOLERANTLIQ ƏNƏNƏLƏRİNİN GÜCLƏNMƏSİNƏ TÖHFƏLƏRİNİ VERİR

Azərbaycan multikultural bir dövlətdir. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub-saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə, 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamı ölkəmizdə multikultural mühitə olan münasibətin daha bir real ifadəsinə çevrildi. Tarixi İpək Yolunda yerləşən Azərbaycan ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyardır və ölkəmizdə multikulturalizm-alternativi olmayan həyat tərzinə çevrilib.

Bu gün Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir. Dünyada yəhudilərin azad şəkildə dini inanclarını icra etdiyi ölkələr içərisində Azərbaycan birinci yerdədir. Azərbaycan, demək olar ki, yəhudilərin İsraildən sonra ən azad dini icma şəklində fəaliyyət göstərdiyi bir ölkədir. Azərbaycanda 7 sinaqoq və 4 gürcü kilsəsi fəaliyyət göstərir. Hətta Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə baxmayaraq, Bakıda erməni kilsəsi qorunub-saxlanılır və bu gün də fəaliyyət göstərir. Təkcə elə bu fakt xalqımızın tolerantlığının bariz göstəricisidir. Bu gün multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı, bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasi kurs, bütün sahələrdə olduğu kimi, multikultural mühitin möhkəmlənməsi, o cümlədən, tolerantlıq ənənələrinin güclənməsinə də öz töhfələrini verməkdədir. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, biz, nəinki ölkə daxilində millətlərarası və dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyirik, həll edirik, biz dünyaya da nümunə göstəririk.



### İSLAM HƏMRƏYLİYİNİN BƏRQƏRAR OLMASINDA AZƏRBAYCAN ÖZÜNƏMƏXSUS MÖVQEYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNİ TƏMİN EDİR

Əsrlər boyu islam sivilizasiyasının əsas mərkəzlərindən biri olan Azərbaycan islam dininin yayılmasında və eyni zamanda, Müsəlman İntibahının bərqərar olmasında mühüm rol oynayıb. Dinlə bağlı sərt qadağaların mövcud olduğu Sovet dövrü Azərbaycanında cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i ötüb keçib. Ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi -Heydər Məscidi inşa edilib. Bütün bu və ya digər amillərlə yanaşı, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının, İSESKO-nun, həmçinin, müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilib.

Bu gün ölkəmizdə, eləcə də, dünya ölkələrində multikulturalizmin təbliği ilə bağlı görülən işlərin miqyası günü-gündən artmaqdadır. Oğuzda, İsmayıllıda və Qaxda multikulturalizm ideyalarının çarçısı olan Bilik Evləri, İsmayıllıda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Nümayəndəliyi açılıb. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi xaricdə öz fəaliyyət sferasını da gündəngünə genişləndirir. Hazırda mərkəzin Almaniya, Portuqaliya, İtaliya, Rusiya, İsrail və Qazaxıstanda filialları fəaliyyət göstərir. Bu, o deməkdir ki, artıq dünya ölkələrində Azərbaycanın multikultural dəyərləri daha geniş şəkildə təbliğ və təşviq edilir. Azərbaycan həqiqətlərinin, xüsusilə də, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin və təcavüzkar Ermənistanın işğalçı siyasətinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində də bu filialların rolu müstəsnadır.

Bütün bunlarla yanaşı, Beynəlxalq Multikulturalizm Mərkəzinin xarici ölkə universitetlərində "Azərbaycan multikulturalizmi" fənninin tədrisi layihəsi çərçivəsində "Azərbaycan multikulturalizmi" fənni də tədris olunur. Video və fotoslaydların nümayişi ilə keçirilən dərslərdə tələbələrə ölkəmizdə əsrlərdən bəri mövcud olan multikultural durum, Azərbaycan multikulturalizminin spesifik xüsusiyyətləri haqqında ətraflı məlumat verilir. Eyni zamanda, multikulturalizmin Azərbaycanın dövlət siyasətində prioritet istiqamət olduğu diqqətə çatdırılır.

***ZÜMRÜD***

# BSU-nun alimləri Simpoziumunda iştirak ediblər

***Türkiyənin Samsun şəhərində Samsun Valiliyi, On Doqquz May Universiteti, Yunus Əmrə İnstitutu və Türk Dili Qurumunun birgə təşkilatçılığı ilə XI Beynəlxalq Dünya Dili Türkcə Simpoziumu keçirilib. Müxtəlif ölkələrin 300-dən çox nümayəndəsinin iştirakı ilə keçirilən bu tədbirdə türkologiyanın aktual problemlərinə həsr olunmuş məruzələr dinlənilib. Bu simpoziumda Bakı Slavyan Universitetinin alimləri də öz məruzələri ilə çıxış ediblər.***

Türk dünyasının bir araya gəlməsində önəmli rolu olan simpoziumda BSU-nu Azərbaycan filologiya fakültəsinin Müasir Azərbaycan dili kafedrasının müəllimi Şəhla Əhmədova "Azərbaycan dilində sayların semantikasının leksikoqrafik həlli", Türkologiya kafedrasının dosenti Xatirə Abdullayeva "Klassik ədəbi dildə işlənən ərəbizmlərdən antroponimliyə keçid", həmin kafedranın dosenti Gülnarə Əliyeva Koşkun "XX əsrdə Rusiyada türk lüğətçiliyi araşdırmaları" və Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının müəllimi Ziyafət Qasımova "Azərbaycan mədəniyyəti nümunələrinin xalaç variantlarına uyğunluğu" adlı məruzələri ilə təmsil edib.

Təşkilat Komitəsi adından Azərbaycan nümayəndə heyətinə sertifkatlar təqdim olunub. Simpozium iştirakçıları daha sonra Samsun şəhərinin tarixi və görməli yerləri ilə tanış olublar. Alimlərimiz simpoziumdan ayrılarkən, belə bir möhtəşəm tədbirin keçirilməsinə və yüksək qonaqpərvərliyə görə Təşkilat Komitəsinə təşəkkürlərini bildiriblər.



***ZÜMRÜD***

***Prezident Rəcəb Tayyib Ərdoğanın Soçiyə səfəri ciddi geosiyasi əhəmiyyət daşıyır. Ekspertlər Putin-Ərdoğan görüşünü bir sıra aspektlərdə dünya siyasətində qüvvələr nisbətini dəyişə biləcək hadisə kimi təqdim etməyə çalışırdılar. Bu proqnoz maraqlı tərzdə öz təsdiqini tapdı. Soçidə iki Prezident qlobal geosiyasət və Yaxın Şərqin gələcəyi aspektlərində əhəmiyyətli müzakirələr apardı. Əldə edilən razılaşmalar Suriyada vəziyyətin normallaşmasında ciddi rol oynayacaq. Dünya ictimaiyyətinin də bu hadisəyə reaksiyası vurğulanan tezisin əsaslı olduğunu təsdiq edir. ABŞ və Avropa Soçi sənədini müsbət qiymətləndiriblər. Hesab edilir ki, razılığa əməl edilərsə, münaqişə, ümumiyyətlə, tam olaraq aradan qalxa bilər. Bunun fonunda Türkiyənin dünya miqyasında mövqeyinin möhkəmlənməsi çox önəmli məsələdir.***



# Türkiyə-Rusiya münasibətləri: qlobal geosiyasətdə qüvvələr nisbəti və Soçi razılaşması

### Reallığa uyğun yanaşma: Moskva və Ankara nümunə göstərirlər

Dünya səbirsizliklə V.Putin-R.T.Ərdoğan görüşünü gözləyirdi. Soçidə nəzərdə tutulmuş bu görüşdə Suriya ilə bağlı mühüm qərarlar alınmalı idi. Bu ümid bütövlükdə özünü doğruldub. İndi KİV-lər qlobal qüvvələr nisbətinə belə təsir edə biləcək hadisənin baş verdiyindən bəhs edirlər. Doğrudan da, məsələnin miqyası o dərəcədə böyükdür ki, onun təsirinin uzunmüddətli olacağına şübhə yoxdur. Bu bağlılıqda bir sıra maraqlı məqamlar mövcuddur ki, onların geosiyasi qiymətləndirilməsi lazım gəlir.

Hər şeydən öncə, bir sıra dairələrin Yaxın Şərqdə region xalqlarına düşmən ola biləcək terror dövlətinin yaradılması cəhdlərinin qarşısı alındı. Bəzi KİV-lər bu dövlətin kürdlərə aid olacağını yazırdı, lakin reallıqda o, qondarma qurumdan başqa bir şey olmayacaqdı. Üstəlik, regionda Türkiyəyə, İrana, Suriyaya və İraqa düşmən kəsiləcək, Rusiya və Çinlə mübarizəyə girişəcəkdi. Ancaq, açıq deyək ki, Türkiyənin fədakarlığı və Donald Trampla V.Putinin dəstəyi sayəsində bu gizli plan puç oldu.

ABŞ Prezidentinin bu planı pozanların arasında olması təəccüblü deyil - o, çoxdandır ki, özündən əvvəlki Prezidentin düzgün addımlar atmadığını deyirdi. Konkret olaraq Suriyada və İraqda PKK ilə ABŞ-ın müttəfiqliyini üzqarası adlandırırdı. Deməli, D.Tramp da imkanı daxilində bu cür məkrli planların pozulmasına yol açıb.

Ancaq əsas ağırlıq Türkiyənin üzərinə düşdü. Ankara həm siyasi iradə, həm də dövlətin gücünü ortaya qoydu. Açıq-aşkar görünürdü ki, Türkiyə dövlət olaraq dünya miqyasında sözünü deyib, onu qəbul etdirə bilən qlobal güc halına gəlməkdədir. Bizcə, bu, qlobal geosiyasi proseslərin gələcəyi aspektində çox mühüm faktordur.

Suriyanın gələcək taleyində bu hadisə ciddi rol oynadı. Faktiki olaraq, Türkiyə Suriyanın ərazi bütövlüyünü suriyalılara yenidən qazandırdı. Təbii ki, bunda Rusiyanın çox böyük dəstəyi mühüm rol oynadı. Bəşər Əsəd bir şəxs olaraq başqa məsələdir. Onun siyasi gələcəyi itirilmiş kimi görünür. B.Əsəd indi rahat İdlibə gedə bilirsə, bunda ruslarla türklərə çox borcludur. Deyəsən, hələlik o, bunu tam dərk etməyib və ya reallığı qəbul etməkdə çətinlik çəkir. Hər bir halda, artıq Dəməşq ərazisinin böyük bir qismini Türkiyə və Rusiyanın hesabına terrorçulardan qan tökülmədən qurtara bildi.

Bu prosesdə İran da qazananlar sırasındadır. Tehran Türkiyəyə qarşı bir qədər qeyri-müəyyən mövqe tutmasına baxmayaraq, Soçi memorandumunu dəstəklədiyini və onun Suriya üçün sabitləşdirici amil olduğunu bildirib. Bu mərhələdə də Türkiyə bir dövlət olaraq regionda mənəvi-əxlaqi zirvədə dayandığını nümayiş etdirdi.

Avropa ölkələri də mövqelərinə düzəlişlər edirlər. Türkiyənin ABŞ və Rusiya ilə problemləri böyük güc kimi yoluna qoyması onları silkələyib. Fransa, Almaniya və Böyük Britaniya indi hədə dili ilə deyil, Türkiyə-Suriya istiqamətində əməkdaşlıqdan danışırlar. Hətta bir yerdə Türkiyə rəhbərliyi ilə görüşməyi planlaşdırırlar. Məsələ ondan ibarətdir ki, artıq Ankara Suriyada birgə layihələr həyata keçirməyə imkan verəcək prosesə başladığını bəyan edib. Xarici işlər naziri Mövlud Çavuşoğlu bəyan edib ki, dünya ictimaiyyəti “əlini daşın altına qoymalıdır”. Konkret olaraq, ABŞ, Avropa, Rusiya, İran, Çin və başqa böyük dövlətlər Suriyaya 3 milyon qaçqının qayıtmasına və orada yerləşdirilməsinə yardım etməlidirlər. Türkiyə təkbaşına bunu etməli deyil. Maraqlıdır ki, layihələrdə iştirak etmək arzusunda olanlar az deyil.

### Yeni geosiyasi konfiqurasiya: çoxqütblü modelə doğru

Bunların fonunda ABŞ-ın mövqeyi maraqlı görünür. Yenə də D.Tramp Türkiyə-Rusiya razılaşmasına müsbət reaksiya verib. O deyib ki, “Suriyanın şimalından yaxşı xəbərlər alınır”. Türkiyə ordusu hərbi əməliyyatları dayandırdığını bəyan edib. Çünki Soçi sənədinə görə, 150 saat ərzində terrorçular nəzərdə tutulan əraziləri tərk etməlidirlər. Əks təqdirdə, türk silahlı qüvvələri yenidən hərəkətə keçəcək. Bu barədə Rusiya Prezidentinin sözçüsü Dmitri Peskov açıq deyib. O söyləyib ki, “YPG çəkilməsə, Rusiya hərbi polisi və Dəməşqə bağlı olan güclər geri çəkiləcəklər və türk ordusu terrorçuları əzib keçəcək”. Amerikalılardan fərqli olaraq, ruslar ciddi olduqlarını, əldə olunan sazişə sadiq qaldıqlarını göstərdilər. Əlbəttə, hər kəs bundan öz nəticəsini çıxarmaqdadır.

Əslində, 10 maddədən ibarət olan sazişdə hər şey aydın yazılıb. Suriyanın ərazi bütövlüyünə hörmət konkret ifadə edilib. Türkiyənin sərhədi yaxınlığında terrorun olması anormal sayılıb. 30 kilometrlik təhlükəsizlik zonası yaradılır (bəzi yerlərdə 10 kilometrdən bəhs edilir, lakin bu da həmin əraziyə ortaq rus-türk nəzarətinin həyata keçirilməsi kontekstində verilir). Türkiyə ilə sərhədin bütün məntəqələrindən YPG (və deməli, SDG) hərbi birləşmələrini 32 kilometr uzaqlaşdırır. Onlar silahları təhvil verib, vətəndaş kimi qalırlar. Deməli, faktiki olaraq, Suriyanın federallaşması və muxtar qurumlara ayrılması təhlükəsi aradan qalxır. Buna Rusiya və Türkiyə qarant dururlar.

Həmin faktı əsas tutan bəzi ekspertlər Amerikanın Türkiyə ilə hərbi toqquşmaya gedəcəyini yazırdılar. Hətta Maykl Pompeo belə bir variantı istisna etməmişdi. Ancaq müdafiə naziri Mark Esper açıq bəyan edib ki, Türkiyə kimi önəmli bir strateji tərəfdaşla ABŞ müharibə etməz və bunu heç düşünmür də. Türkiyə uzun illərdir ki, dünyanın hər yerində ABŞ-la birgə antiterror əməliyyatlarında iştirak edir. D.Trampın yuxarıda vurğuladığımız fikrini də buraya əlavə etsək, məlum olur ki, bütövlükdə Vaşinqton məmnundur. Onun artıq Suriyada radikal qrupları müdafiə etmək kimi bir həvəsi qalmayıb.

Təbii ki, bütün bunlar çox vacib məqamlardır. Türkiyə, faktiki olaraq, dünyanın iki böyük gücünü Suriyada ortaq mövqeyə gətirə bilib. İndi Suriyanın gələcəyi ilə bağlı növbəti addımları atmaq lazım gəlir. Bundan başqa, Türkiyə üçün Rusiyanın verdiyi sözə əməl etməsi çox vacibdir. Jurnalistlərin bununla bağlı verdiyi suala cavabında Türkiyə Prezidenti açıq deyib ki, əgər vədlər yerinə yetirilməzsə, Türkiyə hərbi əməliyyatları bərpa edəcək. Ancaq V.Putin qətiyyətlə terrorçuları oradan uzaqlaşdıracaqlarını və onların Suriya ordusu sıralarına qatılmasına imkan verməyəcəklərini ifadə edib.

Belə görünür ki, Türkiyənin fəallığı qısa bir zamanda qlobal və regional geosiyasi dinamikada qüvvələr nisbətini əhəmiyyətli dərəcədə dəyişib. İndi Yaxın Şərq məsələsində Türkiyə əsas söz sahibidir. Ankaranın ABŞ-la Rusiya arasında manevr imkanlarının tükəndirildiyindən dəm vuranlar susurlar. Və yaxud müxtəlif əsassız arqumentlərlə Türkiyənin bu və ya digər böyük gücün yanında durmağa çalışdığını deyənlər yanıldıqlarını gördülər. Türkiyə dünya miqyasında öz mövqeyini ortaya qoyub, onu qəbul etdirən güclü bir dövlətdir. Bu proses getdikcə daha da sürətlənəcək.

Vurğulanan məqamların başqa geosiyasi əhəmiyyəti Türkiyənin çoxqütblü dünyanın yaradılmasına ciddi töhfələr verməsinin dərk olunmasındadır. Rusiya ilə bu istiqamətdə birgə fəaliyyətin mühüm nəticələrindən biri də iqtisadi sahədə əməkdaşlıqda ifadə olunub. İki ölkə ticarət dövriyyəsini 100 milyard ABŞ dolları həcminə çatdırmaqla bağlı razılığa gəlib və bu istiqamətdə konkret sənədlər imzalayıblar. Türkiyə və Rusiya ticarəti milli valyutalarla aparmaqla bağlı da razılıq əldə ediblər. Bu da maliyyə aspektində iki böyük dövlətin alternativ addımlar atdıqlarını göstərir.

Beləliklə, R.T.Ərdoğanın Soçi səfəri tarixi əhəmiyyətə malikdir. Bu səfərdə həm Türkiyənin geosiyasi nüfuzu yüksəldi, həm də Yaxın Şərqdə illərdir təhlükə yaradan bir münaqişənin həlli istiqamətində konkret addım atıldı. Bu iki aspektin həmahəng şəkildə həyata keçməsi isə türk diplomatiyasının tarixi uğurudur. Şübhə yoxdur ki, Türkiyənin bu irəliləyişindən region xalqları ancaq qazanacaq, bütün sferalarda faydalana biləcəklər.

Bunların fonunda Ermənistan kimi qeyri-konstruktiv siyasət yürüdən ölkələrin də tədricən ram edilməsi prosesi başlaya bilər. İndi İrəvandan səs çıxmır. Burada Türkiyəni bütün dünyaya qarşı qoymağa cəhd göstərirdilər. Lakin ABŞ və Rusiya konkret məsələdə sübut etdilər ki, Türkiyə onlar üçün böyük güc və etibarlı tərəfdaşdır. Erməni xislətinin tarixi iflasına az qalır. Bu, Soçidən də yaxşı görünür!

***Newtimes.az***

# Xunta uçurum astanasında

## Yaxud "Valday şoku" və Paşinyanın "itmiş başı"

***Artıq 2019-cu ilin başa çatmasına az zaman qalıb. Ötən il küçə "demokratı" Nikol Paşinyanı Ermənistan hakimiyyətinin baş naziri kreslosuna oturdan erməni xalqı böyük ümidlərlə yaşayırdılar. Ancaq quldur Paşinyanın quldur siması üzə çıxdıqca, ictimaiyyət artıq bu quldurun "gözlə" mövqeyinə "yox!" deyir. Erməni xalqı, nəhayət, anlayır ki, istər Sarkisyan olsun, istər Petrosyan, istərsə də Paşinyan, neçə belə quldur və işğalçı "yan"lar gəlirsə-gəlsin, bu bəladan qurtura dilməyəcəklər. Çünki nə qədər ki, Ermənistan Azərbaycana qarşı əsassız ərazi iddiasında qalarsa, davam edən işğal rejiminin düşmən ölkəyə "bəxş elədiyi" ən pis sürpriz onun bütün regional iqtisadi və energetik, kommunikasiya layihələrindən kənarda, blokada rejimində saxlanması olacaq.***



Ermənistan ekspertləri də bildirirlər ki, bu gün də öz əvvəlki xələflərindən geri qalmayan baş nazir N.Paşinyanın işğalçılıq siyasəti aparması nəticəsində bu ölkə özünün sovetdən qalma rüşeym iqtisadiyyatı ilə on illərdir ki, dünya iqtisadi sisteminə çıxış əldə edə bilməyən və intqrasiya oluna bilməyən işğalçı və tullantılar ölkəyə çevrilib. Bu prosesin daha sürətlə baş verməsinin səbəbi isə, sərsəm, siyasi savaddan kəm olan Nikol Paşinyan hakimiyyətə gəldiyi gündən, daha çətin anlar yaşandı. Yeni hakimiyyət də, əvvəlkilər kimi, reallığı ört-basdır etməklə, hər hansı müsbət bir nəticə əldə etmək xülyası ilə fəaliyyət göstərmək istədi. Ancaq siyasətdə naşı olan Paşinyanın hakimiyyətə gəldiyi bir ildən çox bir müddətdə həm daxili sosial-iqtisadi vəziyyətin ağır olaraq qalmasında, həm də Ermənistan-Azərbaycan münaqişəsinin həllinin uzadılmasında özünü göstərir. Ermənistan rəhbərliyi ənənəvi absurd mövqeyi ilə, xüsusilə, sərsəm bəyanatları ilə özünün durumunu daha da ağırlaşdırır, eyni zamanda, münaqişənin danışıqlar yolu ilə həllini mürəkkəbləşdirməkdə davam edir. Buna beynəlxalq ictimaiyyətin reaksiyası getdikcə artır. Bir sıra ekspertlər Ermənistanın işğal etdiyi Azərbaycan ərazisini tərk etməsindən başqa yolun olmadığını açıq vurğulayırlar. Ancaq əsas məsələ odur ki, bu həqiqəti dərk etməyə nə erməni siyasi şüuru, nə də Paşinyan təfəkkürü qabil deyil. Lakin ölkədəki vəziyyət göstərir ki, erməni xalqı son günlər davamlı mitinq və aksiyalar keçirməklə, əsl reallığı anlamağa başlayıb.

### Azərbaycan diplomatiyası qarşısında Ermənistan iqtidarının məğlubiyyəti

Başqa cür də ola bilməz. Bütün beynəlxalq tədbirlərdə, o cümlədən, Soçidə və Aşqabadda keçirilən beynəlxalq görüşlərdə küçə "siyasətini" nümayiş etdirən Paşinyan "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" bəyanatının yalan olduğunu vurğulayan Azərbaycan Prezidenti İlham Əliyevin "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır! Nöqtə yox, nida işarəsi!" deməsi quldur və faşist Paşinyanı dizi üstə də oturtdu.

Baş verənlərə diqqət yetirsək, görərük ki, Paşinyanın gülünc "nöqtə" sayıqlaması hakimiyyətdə qalmaq üçün vaxt qazanmaqdan başqa bir şey deyil! Heç kimə sirr deyil ki, Prezident İlham Əliyevin "VALDAY" klubunda səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida" bəyanatı Azərbaycanda və beynəlxalq arenada ciddi müzakirələrə gətirib çıxardı. Azərbaycanın heç vaxt işğal faktı ilə barışmayacağını, Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu prezident "VALDAY" klubunda bir daha səsləndirdi və bu bəyanatla Azərbaycanın ilkin, ənənəvi mövqeyindən imtina etmədiyini, onu sonadək qətiyyətlə qoruyacağını bütün dünyanın diqqətinə çatdırıb.

Paşinyanın "nöqtəsi" isə nə onun işi, nə də başı üçün deyil. Çünki nöqtəni o, ancaq Azərbaycanın diqtəsi altında qoya bilər. Bunun da şərti var: özü və indi Qarabağ torpağının üstündə gəzən digər ermənilər Azərbaycan bayrağının altından keçəndən sonra. Buna da çox qalmayıb. Qarabağın nidası artıq çoxdan qoyulub və Soçidə, Aşqabadda vuruldu. İnşallah, Şuşada möhürünü vuracağı gün isə uzaqda deyil.

Beləliklə, bütün bu faktlar, bir daha onu sübut edir ki, Ermənistan Azərbaycan dövləti qarşısında gücsüz və ölü dövlətdir.

Bir sözlə, işğalçı ölkənin işğalçı baş naziri Paşinyan bu oyundan geri çəkilməlidir. Çünki Soçi və Aşqabad görüşlərində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı artıq Ermənistan cəmiyyətində Paşinyan rejiminə qarşı böyük nifrət və inanmazsızlıq formalaşdırdı. Paşinyanın yenidən sərsəm bəyanatlarla çıxış etməsi isə ölkədaxili ictimai-siyasi vəziyyəti öz xeyrinə dəyişmək məqsədi güdür. Nifrət o qədər güclüdür ki, hətta gənclər ordudan yayınır və birdəfəlik ölkəni tərk edirlər.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, bu gün demək olar ki, Dağlıq Qarabağ problemindən başqa heç bir məsələ həll olunmamış qalmır: "Aprel hadisələrindən sonra, ilk növbədə, dünya ictimaiyyəti, vasitəçiliklə məşğul olan beynəlxalq qurumlar, təşkilatlar bir daha əmin oldular ki, Azərbaycan xalqı ərazilərinin işğal altında qalması ilə barışmayıb və barışmayacaq. Bu, Ermənistan hakimiyyəti üçün də bir dərs olmalıdır. Onlar lazımi nəticələr çıxaracaq və danışıqlar prosesində konstruktiv mövqedən çıxış edəcəklər. Uzun müddət davam edən status-kvo tezliklə dəyişməli, münaqişə beynəlxalq hüququn normaları və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycan əsgəri "hərbi yolla Dağlıq Qarabağ münaqişəsinin həlli yoxdur" fikrini təkrarlayanlara real şəkildə sübut etdi ki, hərbi yolla torpaqların azad olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi mümkündür və bu məsələ ən qısa vaxtda öz həllini tapmalıdır".

**A.SƏMƏDOVA**

# Mübariz Əhmədoğlu: "Paşinyan Ermənistanı məğlubiyyətlər seriyası qarşısındadır"

Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu bu günlərdə Böyük Britaniyanın Ermənistana səfir təyin etmək məsələsinə toxunaraq, bildirib ki, son məqamda bu ölkə milliyyətcə erməni olan Alen Qoqbaşyanı Ermənistana səfir təyin etmək niyyətindən daşındı: "Milliyyətcə ermənin Böyük Britaniyanı Ermənistanda təmsil etməsi ermənilərin əlavə ruh yüksəkliyinə səbəb olacaqdı. Ermənistan prezidenti Armen Sarkisyan uzun müddət Böyük Britaniyada yaşayıb və bu ölkəni çox yaxşı tanıyır. Böyük Britaniya XİN-in sıravi əməkdaşı A.Qoqbaşyan prezident A.Sarkisyanın şəxsən tanıdığı adamdır. A.Sarkisyan Böyük Britaniyada hakimiyyət dəyişikliyi olan kimi, dərhal Londona gəldi və Avropa məsələləri üzrə naziri Kristofer Pinçerlə görüşdü. K.Pinçer onun görüşdüyü ilk xarici ölkə prezidentinin Armen Sarkisyan olduğunu bildirdi. Təcrübəli blef ustası A.Sarkisyan təcrübəsiz naziri aldada bildi və Ermənistanı az qala



Qafqazın açarı kimi təqdim etdi. Beləliklə də, təyinatına nail oldu. Təsəvvür edək ki, Azərbaycanla əlaqəli müəyyən strukturlar işə düşə bilərdi və həqiqət Böyük Britaniyanın qulağına çata bilərdi. Nəticədə, fərqli qərar qəbul edildi. Qərardan çox narahat olan Ermənistanın Xİ naziri Z.Mnasakanyan dərhal Londona uçdu və Dağlıq Qarabağ məsələsində çox böyük irəliləyişin olduğunu bildirdi, xalqların sülhə hazırlanması mərhələsində olduğunu açıqladı. Amma bəllidir ki, o sahədə də heç bir iş getmir. Ermənistanın Xİ nazirinin yeni yalanlarından biridir".

M.Əhmədoğlu, onu da bildirib ki, əgər D.Əsgərov və Ş.Quliyev azad edildikdən sonra getsəydi, bəlkə də Britaniyada sözünə kimsə inanardı: "Bu məğlubiyyət Ermənistan üçün çox ağır itkidir. Çünki bu demokratik və özünü az qala Qərb silvizasiyasının tərkib hissəsi kimi sayan Ermənistanın prezident A.Sarkisyanın doğma ölkəsi hesab edilən Böyük Britaniyada uğradığı məğlubiyyəti idi. Bu məğlubiyyət Ermənistanın gələcək taleyində təsirli rol oynaya bilər. Amma təkcə bu deyil. Mariya Zaxarova ənənəvi mətbuat konfransında Zatulinin hiperaktivliyinə reaksiya verərək bildirdi ki, Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycana məxsusdur. Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyır, Dağlıq Qarabağı Azərbaycanın ərazisi sayır. Amma Rusiyanın siyasətinin spesifikliyinə görə, Rusiya bu ifadəni heç vaxt publik şəkildə işlətmir".

Politoloq RF XİN rəsmisinin bu məsələni ictimailəşdirdiyini də vurğulayıb: "Bir neçə gün ondan öncə, RF Xİ naziri S.Lavrov "Valday klubu"nda N.Paşinyanın "Dağlıq Qarabağ Ermənistandır, nöqtə" bəyanatını tənzimlənmənin gedişinə mənfi təsir edən bəyanat kimi adlandırmışdı".

M.Əhmədoğlu bu seriyadan ən maraqlı açıqlamanın rusiyalı həmsədr İ.Popovun verdiyini söyləyib: "İlham Əliyevin "Dağlıq Qarabağ Azərbaycanındır-Nida" bəyanatı ilə bağlı o, Dağlıq Qarabağda jurnalistlərin sualına cavab olaraq, nazir Lavrovun bu suala cavab verdiyini bildirdi. RF Xİ naziri S.Lavrov heç vaxt o suala cavab verməyib. Cavab verdiyi N.Paşinyanın "Dağlıq Qarabağ Ermənistandır, nöqtə" bəyanatı idi".

Mərkəzin rəhbəri ermənilərin ABŞ-da da müəyyən saxtakarlıqları olduğunu da deyib: "Bu "Orbeli" mərkəzinin hazırladığı formullardır. Yaxın günlərdə o istiqamətdən də Ermənistan, gözlədiyindən tam fərli cavablar alacaqdır.Özünü demokratiya, Qərb dəyərlərinin sadiq təmsilçisi sayan yeni Ermənistan hökuməti də məğlubiyyətlər seriyasına düçar oldu".

**RƏFİQƏ HÜSEYNOVA**

## Bakı sakini mənzilində ölü tapıldı

Paytaxtda mənzildə 71 yaşlı şəxsin meyiti tapılıb. Fövqəlada Hallar Nazirliyindən Trend-ə verilən məlumata görə, nazirliyin "112" qaynar telefon xəttinə daxil olan məlumata əsasən, Bakı şəhərinin Xətai rayonunda 1 nəfər mənzildə bağlı qapı arxasında köməksiz vəziyyətdə qalıb.



Hadisə yerinə cəlb olunan Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq xilasetmə qüvvələri mənzilin giriş qapısını açıb və orada aşkarlanan 1948-ci il təvəllüdlü Əsgərov Tofiq Surxay oğlunun meyitini aidiyyəti üzrə təhvil veriblər.

# Müxalifəti sosial islahatlar niyə narahat edir?

## Yaxud Əli Kərimlinin qrant itkisi qorxusu

***Yenə də müxalifət vurnuxmada və təşvişdədir. Səbəb bəllidir. Son zamanlar sosial sahədə dərinləşən islahatlar, bir-birinin ardınca qəbul olunan sosial paketlər, ümumən əhalinin, xüsusən də, ən həssas və aztəminatlı təbəqənin sosial vəziyyətini yaxşılaşdırmağa xidmət etməsi müxalifəti narahat edir. Xüsusilə də, AXCP sədri Ə.Kərimlinin yuxusu ərşə çəkilib.***

Hər şeyə qara eynəklə baxan Ə.Kərimli, hətta sosial şəbəkələr vasitəsilə gecə-gündüz antitəbliğatlar da aparır ki, guya ölkədə hər şey pisə doğru gedir - görülən işlər, aparılan islahatlar, insanların maddi durumunun yaxşılaşdırılması istiqamətində dövlətin yürütdüyü siyasət təqdir edilməməlidir və s. Cəmiyyətin fikir və düşüncələrini reallıqdan yayındıraraq, başqa istiqamətə yönəltməyə çalışan Ə.Kərimlinin narahat olması təsadüfi deyil. Çünki əhalinin sosial vəziyyəti yaxşılaşdıqca, onların tərəfdarlarının sayı azalmağa doğru gedir. Zatən, bu qüvvələrin cəmiyyətdə elə bir ciddi sosial dayaqları da yoxdur. Görünür, Müsavat başqanı "birləşmək" çağırışlarını elə buna görə edib. Və "müxalifətin birliyi" ətrafında utopik xəyallara dalaraq çağırışlar etməklə, elə zənn edir ki, bunula olan sosial bazalarını "genişləndirirlər". Ancaq anlamırlar ki, Azərbaycan cəmiyyəti kifayət qədər yetkindir.

Dağıdıcı müxalifətin sosial və s. bazasının tükənməsi reallığı düşərgənin keçirməyə cəhd etdiyi icazəsiz aksiyasında bir daha təsdiqini tapdı. Hətta şəhərin mərkəzndə vətəndaşların sıx olduğu ərazilərdə oynanılan şou-tamaşa radikalların istədikləri nəticəni verməyib və bundan sonra da qanunsuzluğa yol verilməyəcək. Nə səsləndirdikləri şüarları, nə də "lider" adlandırılan ünsürlər - Ə.Kərmlinin öz ətrafında süni ajiotaj yaratmağa can atması vəziyyəti onların xeyrinə deyil, bilavasitə ziyanlarına işləyən fakta çevrilir. Lakin dağıdıcıların xalqdan dəstək almaması amili, əsasən, seçkilərə qədər gedib çıxır və bu da, dəfələrlə təsdiqini tapmış reallığın rəkib hissəsidir.

Ona görə də, sağlam siyasi mübarizə üsulundan yararlanmağı bacarmayanlar sonda təxribata əl atır, ictimai asayişi pozacaq hərəkətlərə yol verir, yaxud sosial şəbəkələrdə əsassız ittihamlar səsləndirir və bu yolla gündəmdə qalmağa çalışırlar.

### Məhərrəm Zülfüqarlı: "Müxalifət əhalinin sosial vəziyyətinin pisləşməsi üçün mitinqlər keçirir"

Bax, budur bu mənəviyyatsız və satqınların məqsədi. İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, müxalifət əhalinin sosial vəziyyətinin yaxşılaşmasından ona görə narahatdır ki, bu, onların sonunu yaxınlaşdırır: "O üzdən, bu qüvvələr fikirləşirlər ki, vəziyyət nə qədər pisləşsə, bu, onlar üçün o qədər yaxşıdır. Xüsusən də, məlum radikal müxalifət. Ona görə də, onlar hər vəchlə sosial şəbəkələrdə sosial paket haqda təbliğat aparırlar. Ölkədə aparılan quruculuq işlərinin səmərəsini gözdən salmağa çalışırlar. Böhtan atırlar ki, görülən işləri qaralasınlar. Bir sözlə, radikal



müxalifət əhalinin sosial vəziyyətinin yaxşılaşmasından bərk narahatdır".

### Elçin Mirzəbəyli: "Dağıdıcı müxalifət ölkəmizdə aparılan islahatlarla idarəetmənin daha çevik hala gələcəyindən narahatdır"

BAXCP sədrinin müavini, politoloq Elçin Mirzəbəylinin fikrincə, Azərbaycanın inkişafı, dünyada nüfuz sahibinə çevrilməsi radikal müxalifətin, "5-ci kolon"un şəxsi maraqlarına tərs mütənasib olduğundan, onlar həyata keçirilən islahatlardan narahat olmağa, əndişələnməyə başlayıblar: "Azərbaycanda həyata keçirilən uğurlu islahatlardan təkcə "Milli Şura" və Əli Kərimlinin timsalında radikal müxalifət əndişələnmir. Əslində, öz mövqelərini itirə biləcək və bugünkü idarəetmənin dinamikasına uyğun gəlməyən digər insanlar da bu islahatlardan narahatlıq keçirir.

Azərbaycandan kənarda olan bəzi qüvvələr də ölkəmizdə aparılan islahatlarla idarəetmənin daha çevik səviyyəyə gətirilməsi və təbii ki, onun, bütövlükdə, inkişafımıza ciddi təkan verməsindən narahat olurlar. Bu baxımdan da, sadaladığım ənənəvi "5-ci kolon", Ə.Kərimli, ölkə xaricindəki, habelə, inkişafımızı arzulamayan daxildəki qüvvələrin maraqları üst-üstə düşür. Bu əndişə də oradan qaynaqlanır. Çünki Azərbaycan iqtisadiyyatı inkişaf etdikcə, islahatlar dərinləşdikcə, idarəetmə daha çevik hal aldıqca, bu, ilk növbədə, ölkəmizin uğurlarının daha da artması anlamına gəlir. Təbii ki, bu uğurlar da onu həyata keçirən hakim komandanın ünvanına yazılır."

Göründüyü kimi, radikallıq, süni gərginlik müxalifətin siyasi mübarizəsində yenidən ortaya çıxır. Fəqət, bununla nəsə əldə etmək mümkün olmayacaq. Və ölkəmizin inkişaf və tərəqqisini gözügötürməyən, qazanılan hər bir uğura, hər bir müvəffəqiyyətə barmaqarası baxan daxili və xarici qüvvələr elə yenə də köhnə təfəkkürləində, yenilənməyən düşüncələrində qalacaqlar. Necə ki, on il, on beş il, iyirmi il, iyirmi beş il öncə olduğu kimi. Bu gün ənənəvi müxalifət adlandırılan dağıdıcılar, aqressivlər və aşırı radikallar toplumu 2020-ci ilə parçalanmalar, istefalar, ziddiyyətlər, qarşıdurmalar və qarşılıqlı ittihamlarla getməkdədirlər. Nəticədə, 2020-ci ilə doğru sürünən, bir-birlərinin ayaqlarından dartaraq, özlərindən aşağıya doğru yuvartlatmağa çalışan "liderlər" çox qəribədir ki, yenə də nəyəsə ümid edir. Ancaq köhnə təfəkkürlə yaşayan dağıdıcı və satqın müxalifət 25 il ərzində, bir daha sübut etdi ki, yeni ilə yenə də köhnə problemlərlə gedirlər. Həmin problemləri isə özləri-özlərinə qazandırıblar. Belələri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin, həm də düşmənin yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır. Çünki sizin kimi satqınların qatarı çoxdan gedib...

***Rəfiqə HÜSEYNOVA***

# "Milli Şura"dakılar qaraguruh düşüncəsindədirlər

***Pozucu fəaliyyətləri ilə gündəmə gəlməyə çalışan AXCP sədri Əli Kərimli və ətrafı Bakı şəhərinin mərkəzində icazəsiz aksiyalar keçirməyə və qarşıdurma yaratmağa cəhd etdi. Söhbət etdiyimiz müsahiblərimiz Ə. Kərimlinin və onun havadarlarının, ölkədəki ictimai-siyasi sabitliyi pozmağa cəhd etmələrini onların növbəti təxribatlara cəhdləri olduğunu bildirdilər.***

### "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova: "Əli Kərimli və trollarına iğtişaşlar yaratmaqla bağlı göstərişlər verilib"

- Bu gün "Milli Şura" və AXCP, siyasi partiyadan daha çox QHT-ni xatırladır. Xaricdən anti-Azərbaycan qüvvələrdən aldıqları pullarla cəmiyyətdə xaos, anarxiya yaratmaq, ictimai-siyasi sabitliyə zərbə vurmağı qarşılarına məqsəd qoyublar. Bu məqsədə çatmaq üçün isə icazəsiz aksiyalardan, orada yarana biləcək qarşıdurmalardan istifadə etməyə səy göstərirlər. Bir məqama diqqəti çəkmək istərdim.



Qanunsuz aksiyanın keçirilməsi vaxtı Prezident İlham Əliyevin oktyabr ayının əvvəlində Soçidə "VALDAY" Beynəlxalq Diskussiya Klubunun toplantısında və Aşqabadda MDB Dövlət Başçıları Şurasının Sammitində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı səsləndirdiyi qətiyyətli bəyanatlar, eləcə də, bu ilin 9 ayının sosial-iqtisadi inkişafının nəticələrinə həsr olunmuş müşavirədə bildirdiyi fikirlərdən bir neçə gün sonraya təsadüf etdi. Bütün dünya mətbuatı Azərbaycan Prezidentinin "Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatını manşetlərdə verərkən, başda erməni lobbisi olmaqla, anti-Azərbaycan qüvvələr təşvişə düşdülər. Ölkəmizin adının bu cür hallanmasının qarşısını almaq, mənfi imic yaratmaq üçün isə Əli Kərimli və onun trollarına qanunsuz aksiyalar keçirtmək, iğtişaşlar yaratmaqla bağlı xüsusi göstərişlər verdilər. Aydın şəkildə hiss olunur ki, qanunsuz aksiyanı təşkil edənlər, kimlərsə tərəfindən idarə olunur. Onlardan bu işi tələb edənlər, hesabat da alırlar. Bu kimsələr Azərbaycanı xaosa sürükləmək istəyir və bunu demokratiya, insan haqları, qanunun aliliyi pərdəsi ilə örtməyə cəhd edirlər. Sonradan yaşananlar da bu aksiya cəhdinin xaricdən necə planlaşdırıldığını ortaya qoydu. Hələ qanunsuz aksiya başlamamışdan Əli Kərimlinin və xaricdəki anti-Azərbaycan qüvvələrin birbaşa himayədarlığı ilə bəzi qüvvələr Azərbaycan əleyhinə təbliğat kampaniyasına başladılar. Sosial şəbəkələr, internetlə canlı yayımlar təşkil etdilər. Aksiyada səsləndirilən şüarların mahiyyəti də aydın deyildi. Hansısa konkret ideya və təklif belə yox idi. Bütün bu faktlar bir daha qanunsuz aksiyaların xaricdən planlı şəkildə idarə edildiyini təsdiqləyir.

### Korrupsiyaya Qarşı Mübarizə Mərkəzi İctimai Birliyinin sədri Anar Sarıyev: "Ölkə ictimaiyyəti antimilli ünsürlərə tutarlı cavab verdi"

- Ölkəmizdə aparılan iqtisadi-sosial islahatlar və ölkə vətəndaşlarının sosial rifahının inkişafına yönəlmiş təqdirəlayiq addımların atılması cəmiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. Ölkəmizin ictimai-siyasi sabitliyi hər bir vətəndaş üçün çox böyük önəm kəsb edir və son məlum hadisələrə ölkə ictimaiyyəti tərəfindən layiqli mövqe nümayiş etdirildi və antimilli ünsürlərə tutarlı cavab verildi. Məsələlərə hüquqi aspektən yanaşmaq lazımdır və qanunun aliliyi təmin edilməli, müəyyən edilmiş qanunlar çərçivəsində hüquqi prosessual işlər aparılmalıdır. Bu gün ölkəmiz beynəlxalq miqyaslı tədbirlərə ev sahibliyi edir və bu tədbirlər ölkəmizin dünya miqyasında siyasi güc mərkəzinə çevrilməsinin əyani göstəricisidir. Dövlətimiz hər bir vətəndaşımızın yaxşı yaşaması üçün sosial islahatlar paketi həyata keçirir, həmçinin, dövlət idarəçiliyinin təkmilləşdiril-



məsi çevik və daha operativ olması istiqamətində aparılan islahatlar dövründə Qarabağ probleminin həll olunması istiqamətində ölkəmizin mövqelərinin heç zaman bu qədər güclü olmadığı bir məqamda, təbii ki müəyyən dairələr narahatdırlar və öz məkrli planlarını həyata keçirmək üçün hansısa addımların atılmasına səy göstərdilər. Bu gün Azərbaycan əhalisi ölkə başçısı Prezident İlham Əliyevin ətrafında sıx yumruq kimi birləşmiş və antimilli ünsürlərin təşəbbüslərinə laqeydsizlik nümayiş etdirməklə öz mövqelərini bir daha nümayiş etdirmişlər. Azərbaycan xalqı öz Prezidentini sevir və dəstəkləyir. Xalqın birlik və bərabərliyini pozmaq istəyən bütün qüvvələrə qarşı sərt mövqe ortaya qoyurlar.

***GÜLYANƏ***

# Azərbaycanda Müvəkkilliyin insan hüquqlarının müdafiəsi sahəsində hüquq-mühafizə orqanları ilə əməkdaşlığı

***Prokurorluq orqanları ilə əməkdaşlıq. Cinayətkarlığa qarşı mübarizə tədbirlərini müvəffəqiyyətlə həyata keçirən prokurorluq orqanlarının insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyət bu orqanlarda işin getdikcə təkmilləşməkdə və səmərəsinin artmaqda olduğunu göstərir. Baş Prokurorluğun rəsmi məlumatına, əsasən, aparılmış xidməti yoxlamaların nəticəsi üzrə müxtəlif nöqsan və çatışmazlıqlara yol verdiklərinə görə, 37 nəfər prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilmişdir.***

Prokurorluq orqanları ilə bağlı Müvəkkilin ünvanına 750 müraciət daxil olmuşdur. Həmin müraciətlərin bir çoxu Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə səmərəli əməkdaşlıq şəraitində araşdırılmış, pozulmuş insan hüquqlarının bərpası istiqamətində zəruri tədbirlər görülmüşdür.

Müraciətlərdə, əsasən, bəzi prokurorluqlar tərəfindən təhqiqata və istintaqa prosessual rəhbərliyin yetərincə həyata keçirilməməsi, törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara uyğun olaraq, kifayət qədər səbəblər və əsaslar olmasına baxmayaraq, cinayət işinin başlanılmaması, zəruri istintaq və ya digər prosessual hərəkətlərin həyata keçirilməməsi, şikayətlərdə qeyd edilən xüsusatların tam və ya qismən araşdırılmaması kimi hallar öz əksini tapmışdır.

Müvəkkilin prokurorluq orqanlarına müraciətlərindən sonra aparılmış yoxlamalar əsasında bir çox hallarda cinayət işinin başlanmasının rədd edilməsi, cinayət işi üzrə icraatın dayandırılması, cinayət işinin icraatına xitam verilməsi barədə qərarlar ləğv edilmiş, həmçinin, toplanılmış materiallar istintaq orqanına göndərilmiş və cinayət işi başlanılmış, habelə, sübutların qiymətləndirilməsindən sonra törədilmiş cinayət əməli Cinayət Məcəlləsinin bir maddəsindən digər maddəsinə tövsif edilmiş, habelə, istintaq aidiyyəti dəyişdirilmiş, həmçinin, nöqsanların aşkar edildiyi hallarda, habelə, müraciətlərdə göstərilmiş xüsusatların hərtərəfli və obyektiv araşdırılması üçün zəruri hallarda aidiyyəti üzrə əməliyyat tapşırıqları və göstərişlər verilmişdir.

Materiallar üzrə tam, hərtərəfli və obyektiv araşdırma aparılmadığı hallar müəyyən edilmiş, belə hallarda, cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarlar təhqiqata və istintaqa prosessual rəhbərliyi həyata keçirən prokuror və ya yuxarı prokurorluq tərəfindən ləğv edilərək, material təkrar təhqiqata qaytarılmışdır.

Şikayətlərin təhlili göstərir ki, bəzən yerli prokurorluğun əməkdaşları tərəfindən araşdırılması aparılan materiallar üzrə cinayət işinin başlanmasının rədd edilməsi barədə qəbul edilmiş qərarın, müvafiq prokuror tərəfindən təsdiq edilməsinə baxmayaraq, material Baş Prokurorluq tərəfindən öyrənildikdən sonra araşdırmanın tam, hərtərəfli və obyektiv aparılmadığının müəyyən edilməsi nəticəsində, qərarın onu təsdiq etmiş prokuror tərəfindən ləğv edilərək, təkrar araşdırmaya qaytarıldığı halları da olmuşdur. Belə ki, bəzi rayon prokurorluqlarında ərizəçilərin müraciətlərinə və göstərdiyi xüsusatlara əhəmiyyət verilməmiş, yalnız Müvəkkilin və Baş Prokurorluğun müdaxiləsindən sonra həmin prokurorluqlar tərəfindən aparılmış təkrar araşdırma zamanı qəbul edilmiş qərar üçün əsasların natamam olduğu müəyyən edilmişdir. Lakin xüsusi olaraq, qeyd edilməlidir ki, Baş Prokurorluğun müdaxiləsi olmadan da, bu nöqsanlar vaxtında aradan qaldırıla bilərdi.

Törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatların alındığı, hər bir halda, təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işi başlamaq, cinayət işinin başlanılmasını rədd etmək, məlumatı istintaqa aidiyyəti üzrə göndərmək, xüsusi ittiham qaydasında təqib olunan cinayətə dair məlumatı məhkəmə aidiyyəti üzrə göndərmək kimi qərarlardan birini qəbul etməlidir. Lakin bəzən qanunun bu tələbinə əməl edilmir və vətəndaşın müraciəti üzrə müvafiq prosessual qərar qəbul edilməsi əvəzinə, həmin müraciət ümumi qaydada arxivə göndərilir. Bəzən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror da müvafiq müraciətlər üzrə həyata keçirilmiş hərəkətlərin qanunauyğun olub-olmamasına düzgün qiymət vermir. Belə şikayətlərin yoxlanılması məqsədilə göndərildiyi prokuror da müvafiq qanunvericiliyin pozulmasına diqqətsiz yanaşır, vətəndaşın şikayətinin qanunla müəyyən edilmiş qaydada araşdırılması əvəzinə, təhqiqatçının materialların işə alınması qərarını mübahisələndirmir.

Araşdırmanın natamam aparıldığı, prosessual qərarları prokuror tərəfindən ləğv edilmiş, icraatında olan material üzrə araşdırmanı natamam apardığına görə araşdırma prosesindən kənar edilmiş, təhqiqata və istintaqa prosessual rəhbərliyi həyata keçirən prokurorun göstərişlərinə əhəmiyyət verməyən, cinayət-prosessual normalarının tələblərinə riayət etməyən, vətəndaşların hüquqlarının və qanuni maraqlarının pozulmasına səbəb olan əməkdaşlar barədə tədbirlərin ciddiləşdirilməsi zəruridir.

İbtidai araşdırmaya prosessual rəhbərliyin keyfiyyətinin yaxşılaşdırılması, vətəndaşların müraciətlərinə baxılması və onların qəbulu işinin daha da təkmilləşdirilməsi, aşkarlığın təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərin davam etdirilməsi, prokurorluq orqanları tərəfindən insan hüquqlarının və azadlıqlarının daha səmərəli təmin edilməsi və etibarlı məhkəmələrin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması, notariat və qeydiyyat qurumlarının işinin təşkili, məhkəmə qərarlarının icrası üzrə fəaliyyətin təkmilləşdirilməsi sahəsində bir sıra tədbirlər görülmüşdür.




Müvəkkil Ədliyyə Nazirliyi ilə əməkdaşlıqda fəaliyyət göstərmiş, istər təsisatda, istərsə də regionlarda keçirilmiş tədbirlərdə ədliyyə orqanlarının əməkdaşları da iştirak etmişlər. Təsisatla Ədliyyə Akademiyası arasında qarşılıqlı-səmərəli əməkdaşlıq əlaqələri davam etdirilmiş, icbari təlim kurslarının məşğələlərində aparatın əməkdaşları dinləyicilər qarşısında müxtəlif mövzularda mühazirələr oxumuşlar.

Qeyd edilənlərlə yanaşı, bəzi şikayətlərdə notariat, qeydiyyat və bələdiyyə orqanlarının, habelə, icra məmurlarının fəaliyyətindən narazılıq, o cümlədən, süründürməçilik halları öz əksini tapmışdır. Həmin şikayətlər üzrə aparılmış araşdırmalar nəticəsində, bir sıra hallarda, vətəndaşların pozulmuş hüquqları bərpa edilmişdir.

Rəsmi məlumatlara əsasən, vətəndaş müraciətlərinə baxılmasında nöqsanlara yol verildiyinə görə, 34 ədliyyə işçisi ciddi intizam məsuliyyətinə cəlb olunmuşdur. Bununla yanaşı, pozuntulara yol vermiş 388 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilmiş, aşkar edilmiş hüquq pozuntuları, o cümlədən, maliyyə əyintiləri ilə əlaqədar hüquqi qiymət verilməsi üçün 65 material prokurorluğa göndərilib.

1009 müraciətdə məhkəmə qərarlarının icra edilməməsi və ya uzun müddət icrasız qalması, süründüməçiliyə yol verilməsi, icra məmurları tərəfindən vətəndaşlarla münasibətdə etik davranış qaydalarının pozulması kimi hallar, onlardan 374 müraciətdə isə, aliment tələbinə dair qərarların icra edilməməsi göstərilmişdir.

İcra məmurlarının öz səlahiyyətlərindən yetərincə istifadə etmədiyi, borclunun axtarışı ilə bağlı tədbirlər görmədən, işi icra edilmədən məhkəməyə qaytardığı hallar da, hüquqların pozulmasına səbəb olmuşdur. Bəzi icra məmurlarının öz vəzifələrinin icrasına qeyri-peşəkar və laqeyd münasibəti də hüquqların pozulması ilə nəticələnmişdir.

Rəsmi məlumata əsasən, bəzi icra qurumlarının fəaliyyətində aşkar olunmuş ciddi nöqsanlara görə, 35 əməkdaş intizam məsuliyyətinə cəlb edilmiş, onlardan 2-si ədliyyə orqanlarından xaric olunmuş, 3 nəfər isə tutduğu vəzifədən azad edilmişdir.

Alimentin borclu tərəflərindən vaxtında ödənilməməsi və ya ödənişdən boyun qaçırılması, ödənişin yubadılması, yaxud da borclunun icra qurumlarından gizlənməsi müvafiq məhkəmə qərarlarının icra edilməsinə maneçilik törədir.

İcra hərəkətlərinin həyata keçirilməsinə baxmayaraq, borclu tərəfin işləməməsi, rəsmi iş yerinin olmaması, tələbin yönəldilə biləcəyi əmlakın və digər gəlirlərin aşkar edilməməsi, əmək qabiliyyəti olmayan borclunun işləyə bilməməsi, pensiya (müavinət) almaması və ya məbləğinin az olması, müxtəlif qanunazidd yollarla borcu ödəməkdən yayınması və gizlənməsi, ölkənin hüdudlarını tərk etməsi səbəbindən, aliment borcunun ödənilməsində çətinliklər yaranır, yaxud da ödənişin təmin edilməsi mümkün olmur.

Boşanmalar nəticəsində, alimentin müəyyən edilməsi və əmlakın bölünməsi zamanı məhkəmələr tərəfindən ana və uşaqların mənafeyi, o cümlədən, sosial təminat, mənzil və mülkiyyət hüquqları nəzərə alınmalıdır.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs



## Lüis Hemilton Meksikada "Formula 1" üzrə altıqat dünya çempionu ola bilər



Almaniyanın "Mercedes" komandasının pilotu Lüis Hemilton bu gün start götürəcək "Formula 1" üzrə Meksika Qran-prisində çempionluğunu erkən rəsmiləşdirə bilər. "Report" xəbər verir ki, altıncı dəfə bu titula yiyələnmək üçün 34 yaşlı britaniyalı pilotun ən yaxın izləyicisi Valtteri Bottasdan 14 xal çox toplaması lazımdır.

Hemilton hazırda 338 xalla liderdir. Onun finlandiyalı komanda yoldaşının 274 xalı var. "Üçlüy"ü 223 xalla İtaliya "Ferrari"sinin pilotu Şarl Lekler qapayır.

Reqlamentə əsasən, yarışda ilk 10 yeri tutan pilotlara ardıcıllıqla 25, 18, 15, 12, 10, 8, 6, 4, 2 və 1 xal verilir. Ən tez dövrə vuran və yarışı "10-luq"da tamamlayan sürücü üçün isə əlavə 1 xal nəzərdə tutulub.

Qeyd edək ki, Lüis Hemilton 2008, 2014, 2015, 2017 və 2018-ci il mövsümlərində "Formula 1" üzrə dünya çempionatının qalibi olub. Bu gün Meksika Qran-prisində 2 sərbəst yürüş baş tutacaq. Oktabrın 26-da daha bir sərbəst yürüş və sıralama turu nəzərdə tutulub. Əsas yarış isə bazar günü olacaq və Bakı vaxtı ilə saat 23:10-da start götürəcək.

## Yaddaşın möhkəmləndirilməsi üçün şirələr



Həddən artıq yüklənmələr, yüksək stress və yaşlanma - bütün bunlar bizim yaddaşımızı zəifləder. Xoşbəxtlikdən elə içkilər var ki, onlar bu prosesi ləngitməyə imkan verir.

AZƏRTAC tibb saytlarına istinadla bu şirələr haqqında söhbət açır. Kök şirəsi. Kökü yalnız salat və şorbalara qatmaqla ondan istifadəni məhdudlaşdırmaq lazım deyil. Bu tərəvəzin tərkibində olan beta-karotin yaddaş üçün çox faydalıdır. Bu oksidant iltihabdan müdafiə edir və intellekti möhkəmlətməyə şərait yaradır. Bundan başqa, kök şirəsi təbiətinə görə şirindir, gün ərzində 1-2 stəkan içmək sizə xoş gələr. Tomat şirəsi. Tomat dünyanın bir sıra milli mətbəxində əsas inqrediyentlərdəndir. Pomidorun tərkibində beyin hüceyrələrini müdafiə edən antioksidant - likopin mövcuddur. O, həmçinin arterial təzyiqi aşağı salır, dərinin sağlamlığını və parlaqlığını qoruyub saxlayır. Nəhayət, pomidor A və C vitaminlərinin zəngin mənbəyidir. Nar şirəsi. Beyin hüceyrələrinin fəaliyyəti üçün oksigen və nutriyentlər (qida maddələri) tələb olunur. Nar şirəsi qan dövranının yaxşılaşmasına və beynin qanla təminatına şərait yaradır. Deməli, bir stəkan nar şirəsi çox faydalıdır.

Çuğundur şirəsi. Bu şirə də oksigen və nutriyentlərlə zəngin qanın beyinə ötürülməsini təmin edir. Bundan başqa, çuğundur şirəsi tərkibindəki azot oksidləri sayəsində beyni yaxşı vəziyyətdə saxlayır və yaddaşı möhkəmləndirir. Həmçinin arterial təzyiqi azaldır.

Giləmeyvəli smuzi. Müxtəlif giləmeyvələrin tərkibində faydalı komponentlər mövcuddur. Bunlar həm də smuzi üçün çox dadlı komponentlərdir. Bu içkini hazırlayarkən bir dəfəyə giləmeyvənin bir neçə növündən istifadə edin.

## Dünyanın ən varlı insanı bir gündə 6,9 milyard dollar itirib



Forbes jurnalının illik reytinqində liderlik edən "Amazon" internet-reteylerinin qurucusu və rəhbəri Ceff Bezos kompaniyanın kotirovkalarının ucuzlaşması səbəbindən bir gündə 6,9 milyard dollar itirib. CNBC telekanalı xəbər verir ki, "Amazon" dünən üçüncü kvartalda gəlirlərinin hesabatını təqdim edib. Göstəricilər proqnozlardan aşağı olub və bunun nəticəsində kompaniyanın səhmləri 9 faiz enib. "Amazon"un 57,6 milyon səhmi Bezosa məxsusdur. Əgər səhmlər ucuzlaşmaqda davam edərsə, Bezosun dünyanın ən varlı insanları siyahısında birinci yeri Bill Qeytsə keçə bilər.

## "MLS-dən getsəm, heç kim bu liqanı yadına salmaz"




"Los Anceles Qalaksi"nin futbolçusu Zlatan İbrahimoviç ötən gecə MLS-də keçirilən qərb kubokunun yarımfinal oyununda "Los Anceles"ə 3:5 məğlub olduqdan sonra maraqlı fikirlər səsləndirib.

38 yaşlı isveçli hücumçu ABŞ mətbuatına açıqlamasında növbəti il klubda qalıb-qalmayacağı ilə bağlı suala aydınlıq gətirib: "MLS-də qalmağım liqa üçün çox yaxşı olar. Çünki bütün dünya mənə görə bu liqanı izləməyə davam edəcək. Buradan getsəm, azarkeşlərin də liqaya marağı azalar və heç kim bu liqanı yadına da salmaz". Qeyd edək ki, "Los Anceles Qalaksi"də bu mövsüm 29 oyuna 30 qol vuran Zlatanın dekabr ayında klubu ilə müqaviləsi başa çatır.

## Avroliqada həftənin ən yaxşı futbolçusu açıqlandı




Avropa Liqasında bu həftənin ən yaxşı futbolçusu müəyyənləşib. UEFA-nın saytında yer alan məlumatda deyilir ki, "Arsenal"ın futbolçusu Nikolas Pepe hamını qabaqlayıb. O, səsvermədə Ryan Kristi ("Seltik"), Ussama İdrissi ("Alkmar") və Franko Vaskesi ("Sevilya") geridə qoyub. Qeyd edək ki, 24 yaşlı hücumçu qrup mərhələsinin 3-cü turunda "Vitoriya Gimaraeş"lə matçda (3:2) dubla imza atıb.

## "Qarabağ"ın iki futbolçusu UEFA Avropa Liqasının rəmzi komandasında yer alıb




UEFA Avropa Liqasının qrup mərhələsinin üçüncü turunun oyunlarından sonra həftənin komandası açıqlanıb. UEFA-nın saytında yer alan məlumatda deyilir ki, rəmzi "11-lik"də "Qarabağ"ın doğma meydanda APOEL-lə 2:2 hesabı ilə heç-heçə etdiyi oyunda 1 qol və eyni sayda məhsuldar ötürmə ilə fərqlənən yarımmüdafiəçisi Dani Kintana və bir qolun müəllifi olan müdafiəçisi Ailton Silva da yer alıb. APOEL klubunda isə Nikolas İonnau və Linus Hallenius fərqləniblər.

Rəmzi komandada Matvey Safonov ("Krasnodar", Rusiya), Artem Şabanov ("Dinamo Kiyev", Ukrayna), Oven Vijndal ("Az Alkmar", Niderland), Serxio Eskudero ("Sevilya", İspaniya), Ailton Silva ("Qarabağ", Azərbaycan), Teun Koopmeiners ("Az Alkmar", Niderland), Dani Kintana ("Qarabağ", Azərbaycan), Franko Vazquez ("Sevilya", İspaniya), Nikolas Pepe ("Arsenal", İngiltərə), Oussama İdrissi ("Az Alkmar", Niderland) və Roman Yaremçuk ("Gent", Belçika) yer alıblar.

## Futzal üzrə Azərbaycan millisi rəsmi oyunlarda 35-ci qələbəsini qazanıb



Futzal üzrə dünya çempionatının əsas mərhələsi çərçivəsində Monteneqro ilə qarşılaşan millimiz yubiley qələbəsini qazanıb. Azərbaycan Futzal Federasiyasının saytında deyilir ki, oyun komandamızın 3:2 hesablı qələbəsi ilə yekunlaşıb. Bu isə millinin indiyədək keçirdiyi rəsmi oyunlarda 35-ci qələbəsi olub. Beləliklə, futzalçılarımız dünya çempionatlarında 26 oyun keçirib, 12 qələbəyə seviniblər. Qitə birinciliklərində 51 oyun keçirən yığmamız 23 dəfə meydançanı qalib tərk edib.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600